**TELMAN İBRAHİMOV**

# ŞƏRQ SİLAHI

# MÜNDƏRİCAT


**GİRİŞ** 3

**I FƏSİL**. Şərq silahlarının bədii-texniki ənənələri 4
- Türk silahları 4
- İran silahları 6
- Ərəb silahları 9
- Orta Asiya silahları 11
- Qafqaz silahları 13

**II FƏSİL**. Azərbaycan silahlarının bədii ənənələri 19
- Soyuq silahlar 19
- Odlu silahlar 29

**NƏTİCƏ** 31
**ƏDƏBİYYAT** 34
**İLLÜSTRASİYA SİYAHISI** 36
**İLLÜSTRASİYALAR** 39

# GİRİŞ

*Uzun əsrlər boyu bədii və estetik normaları özündə əks etdirən Şərq silahları bədii-texniki fikir və təcrübənin unikal nümunəsi olmuşdur. Silah ilkin vəzifəsi ilə yanaşı, ta qədimdən bədii yaradıcılıq obyektinə çevrilmişdir.*

*Silah artıq uzun zamandır ki, tətbiqi-dekorativ incəsənətin, daha dəqiq desək, "bədii metal" adlanan sahənin vacib hissələrindən biridir. Konstruktiv və bədii xüsusiyyətləri ilə maraq doğuran Şərq silahları silah işinin ayrılmaz hissəsidir. Məhz bu səbəbdən də onun müxtəlif silahkarlıq məktəbləri ilə müqayisəli tədqi-qatına ehtiyac duyulur.*

*Bir çox Şərq xalqlarının silah sənəti ənənəsi bəzən bu və ya digər silahın hansı xalqa və ya ölkəyə məxsus olduğunu müəyyənləşdirmək baxımdan çətinlik yaradacaq qədər qaynayıb-qarışmışdır. Bu zəmində də silahın hazırlanması və işlənməsi qaydalarını daha dərindən izləməyə imkan yaradan bədii-texniki təhlilə ehtiyac yaranır.*

*Kitabın məqsədi Şərqin, o cümlədən Azərbaycanın silah növlərini tipoloji xüsusiyyətlərinə görə əsaslandırmaq, eləcə də orta əsr silahlarının hazırlanması və bəzədilməsinin əsasında dayanan ənənəvi vərdişlərin konstruktiv və bədii xüsusiyyətlərinin təhlilidir. Qarşıda duran vacib məsələlərdən biri də silah işinin geniş yayıldığı ərəb Şərqi, Türkiyə, Qafqaz, İran, Orta Asiya və s. kimi silah mərkəzlərinin bədii ənənələrinin müqayisəsidir.*

*Sadalanan regionlarda silah sənətinin milli keyfiyyətlərinin əsasında dayanan texniki və bədii normaların müəyyənləşdirilməsi də əsas vəzifələrdəndir. Göstərilən vəzifələr nöqteyi-nəzərindən lokal silah məktəblərinin kompleks şəklində bədii-texniki baxımdan araşdırılması təşəbbüsü bu regionlarda mövcud olan bədii-texniki yaradıcılıq sahələrini üzə çıxarmaq məqsədi daşıyır. Bu məqsədin həyata keçirilməsi ilə yanaşı, bu və ya digər regionda geniş istifadə olunan materialın və bəzək texnikasının təhlilinə də cəhd göstərilir.*

*Və nəhayət, tədqiqatın qarşısında duran ən vacib məqsəd muzey kataloqlarında, mənşəyi konkret müəyyənləşdirilməyən, "Qafqaz silahları" və ya "Şərq silahları" adlandırılan silah sənəti nümunələrinin milli mənsubiyyətini üzə çıxarmaqdır.*

# I FƏSİL

## ŞƏRQ SİLAHLARININ BƏDİİ-TEXNİKİ ƏNƏNƏLƏRİ

### *TÜRK SİLAHLARI*

Türk bədii mədəniyyətinin özünəməxsus xüsusiyyətləri silahların hazırlanmasında da özünü parlaq şəkildə büruzə verir. Təntənəli silahlarının bəzədilməsində oyma naxış, kəsmə, mina tətbiq edilmiş, qiymətli və yarımqiymətli bəzək daşlardan istifadə olunmuşdur. Silahların hazırlanmasında mütləq zərgərlər də iştirak edirdilər.

Silahların bəzədilməsində Türkiyənin orta əsr tətbiqi incəsənətinə uyğun ornamentlər: nazik sarmaşan gövdələrin üslublaşdırılmış kompozisiyaları, qərənfil, zanbaq, beşləçəkli güllərin təsviri istifadə olunurdu. Ustalar böyük məharətlə qızıl və qiymətli daşlardan soyuq silahlara və hərbi ləvazimatlara naxış vururdular. Odlu silahlardan isə tüfəng, tapança və barıtqabıları bəzədilirdi. Dünya silah kolleksiyasındakı türk silah ləvazimatlarının böyük bir hissəsi XVI-XVII əsrlərə – Osmanlı imperiyasının qüvvətləndiyi vəsənətkarlığın çiçəklənməsi dövrünə aiddir. Bədii silah istehsalının sonuncu inkişaf mərhələsi XIX əsrə təsadüf edir. Bura oyma, mina, kəsmə, yeni texniki üsulla bəzədilmiş təntənəli silahlar aiddir.

Orta əsrlərdə Türkiyədə iki xəncər tipi yayılmışdır:

a) sivri tiyə və tutacaqlı, enli, yastı başlıqlı və özüllü, nazik dəstəkli xəncər;
b) düz tiyə və yoğun tutacaqlı xəncər.

Birinci tip tiyələrə nadir hallarda naxış vurulurdu. Onlar bəzədildikləri təqdirdə bir, yaxud hər iki tərəfdən qızıl, ya da gümüş çərtmələrdən ibarət olur. Xəncərin sivri tiyəsinin dəstəyə yaxın enli hissəsi şəbəkəli ornament yaradan xırda güllər və yarpaqlardan ibarət qızılı çərtmə ilə bəzədilmişdir. Ağacdan yonulmuş xəncərin qını da üst tərəfdən qızılla örtülmüşdür. Qının dekoru oymalı dalğavarı nəbati ornamentli üstü qızıl ensiz friz zolaqdan ibarətdir.

Onların ağacdan hazırlanmış dəstək və qınları, adətən metalla (mis, gümüş, qızıl), xüsusən də rəngli daşlarla uyğunlaşdırılmış oyma və oyma ornamentlərlə örtülür.

Bu xəncərlərin ən parlaq nümunəsi Ermitaj muzeyində saxlanılan XVII əsrin əvvəllərinə aid xəncərdir (*şək. 1*). Onun sivri tiyəsinin dəstəyə yaxın hissəsi şəbəkəli ornament yaradan xırda güllər və yarpaqlardan ibarət qızıl çərtmə ilə bəzədilmişdir. Qının dekoru oymalı dalğavari nəbati ornamentli üstü qızıl, ensiz friz zolaqdan ibarətdir.

İkinci tip xəncərlərin tiyələrində stilizə olunmuş nəbati ornamentlər xatəmkarlıq üsulu ilə icra olunmuşdur (43.329). Dəstəklər çox vaxt sümükdən hazırlanır, bəzi yerlərdə zərb edilmiş mis, yaxud da gümüş bəndlərlə zəncirlənir, qın isə adətən oymalı naxışla tərtib olunmuş nazik metal təbəqə ilə örtülür.

Müxtəlif qiymətli, yarımqiymətli və xırda daşlardan hazırlanmış dəstəklərə və qınlara da rast gəlinir. XVI əsrin sonu - XVII əsrin əvvəllərinə aid edilən bu tip xəncər nümunələri Ermitaj kolleksiyasında mühafizə edilir (*şək. 2*). Uzunluğu 27.3 sm olan xəncərin qara nefritdən düzəldilmiş dəstəyi və qınının üzərində yaqut və zümrüd daş-qaşları var. Qızıl təbəqə üzərində olan qiymətli daşlardan hazırlanmış rəngli daş-qaşlar xırda çiçəklər, saplaqlar və yarpaq yaradır.

Təntənəli türk silahlarının tipik nümunələri əsasən XVIII əsrin sonu – XIX əsrin əvvəllərinə aiddir. Bunlar qılınc və yatağanlar, çaxmaqdaşlı tüfəng və tapançalardır.

Xüsusi enliliklə bitən ikiağızlı, enli tiyəli iti türk qılıncları yüksək keyfiyyətli poladdan hazırlanmışdır. XIX əsr qılıncları yüngül və gözəl dekoru ilə fərqlənir: qınlar yarıqiymətli daşlardan, xüsusilə, türk silah ustalarının sevimlisi olmuş mərcanlardan hazırlanmış taxmalara malik ornamentlə bəzədilmişdir.

XVIII əsr türk yatağanları bədii dekor sənətinin gözəl nümunələrindəndir: onların dalğavarı əyri tiyələri dəstəyə bitişik yerdə qabartma oyuqlara salınmış mərcan taxmalı zərb olunmuş üstlüklərə malikdir. Türk yatağanı tiyənin əyilmiş tərəfində olan ülgüclü, doğrayan və batırıcı soyuq silahdır (kəsici və deşici qılınc arasında olan silah növü).

Yatağan XVI əsrdən etibarən əsasən türk yeniçərilərinin silahı kimi tanınır. Yatağanlar Türkiyədən başqa, Yaxın Şərq, Balkan yarımadası və Cənubi Qafqaz ordusu tərəfindən də istifadə olunmuşdur (*şək. 3*).

Yatağanın qəbzəsi qardasız (əli düşmən zərbəsindən qorumaq üçün qılınc dəstəsinə bənd edilən metal lövhəcik), tutacağı isə sümük və ya dəmirdəndir, başında isə ələ dayaq vermək üçün enli bir yer var. Tutacağın bir hissəsi ilə tiyə qına girir. Yatağanın taxta qını dəri ilə tarımlanmış və ya dəmirlə örtülmüşdür.

Orta əsrlərdə Türkiyədə yatağanla yanaşı, "məmlük" adlı qılınclar da yayılmışdı. Bu, olduqca sivri qılınc türk-məmlük dəstələrində istifadə olunurdu. Türk məmlüklərinə məxsus, tiyəsinin mailiiliyi 45 dərəcəyə çatan sivri qılınc lifləri mişar kimi doğrayırdı. Məmlük qılınclarının bəzədilməsində sümük (tutacaq üçün), gümüş və qızıl, tiyənin dekorunda isə, bir qayda olaraq, oyma və qızıl qaxmalardan istifadə olunurdu.

Soyuq silahların bəzədilmə üsulları öz davamını odlu silahların bəzədilməsində də tapdı.

Dünya kolleksiyasındakı odlu silahlar XVII-XVIII əsrin nümunələrlə təqdim olunur. Qundağı beşüzlü və lüləsi arxadan kəskin çıxıntılı olan tüfənglər ağır və böyükdür. XVIII əsrin II yarısınadək odlu silahların istehsalında köhnə konstruksiyalardan – zərbli çaxmaqdaşlı və fitil sürgülərdən istifadə olunurdu.

Şərqin silah ustaları təntənəli silahların bəzədilməsində qıvraq, soyuq silahın dekorunda olan mürəkkəb üsullardan və müxtəlif materiallardan istifadə etmişlər.

Qaynaqlanmış poladdan hazırlanan türk tüfənglərinin yonulmuş lüləsi qızıl çərtmə ilə örtülmüş, üzəri ustanın adı olan kartuş və nəbati ornamentlə bəzədilmişdir. Türk tüfənglərinin böyük ölçülü çaxmaqdaşlı sürgüsü gümüşlə örtülmüş, qundağı isə ulduz və aypara şəkilli sədəflə və gümüşü taxmalarla bəzədilmişdir. XIX əsrdə Avropa texnologiyasının təsiri altında türk tapançalarında Avropa tipli çaxmaqdaşlı sürgülər yarandı (*şək. 4*).

İnkişaf etmiş orta əsrlərin təntənəli soyuq silahın ilkin nümunəsi Ermitaj kolleksiyasındakı xəncərdir (*şək. 5*). XVI əsrin sonu – XVII əsrin əvvəllərinə aid xəncərin bir parça sümükdən düzəldilmiş dəstəyində çox böyük məharətlə yerləşdirilmiş sarmaşan saplaq, şanagül, arabesk təsviri həkk olunmuşdur.

Bu dövrün İstanbul, Ədirnə, Qars, Ərzurum şəhərlərində yerləşən sultan cəbbəxanaları qılınc, xəncər, nizə, tüfəng kimi minlərlə hücum silahlarları nümunələri, həmçinin müxtəlif növlərə və bəzəklərə malik qalxan, dəbilqə və zirehləri doldurulmuşdu. Türk ustaları etibarlı müdafiəni, eyni zamanda döyüşçünün çevikliyini təmin edən yaxın Şərq qalxanlarını əsas götürüb, ikinciyə xələl gəlmədən birincinin keyfiyyətini yüksəldə biləcək üsul tapmışdılar. Onlar çalmanın üstündən taxılan konusşəkilli böyük dəbilqə, böyük, ağır tiyəli qılınc, eləcə də gürz və şeşpər hazırlamağa nail oldular. Məşhur yatağanların yayılması da, güman ki, bu dövrə təsadüf edir (77.51).

Tiyəsindəki yazıya əsasən I Süleymanın sifarişi ilə silah ustası Əhməd Bəkli tərəfindən hazırlandığı yüksək bədii məziyyətlərə malik yatağan maraq doğurur. Gözəl cizgili tiyə mübarizə aparan heyvanların fiqurları olan qızıl qaxmalı qabartma ilə bəzədilmişdir. Burada sultanın titulları və vəsfi sadalanan yazı da həkk olunmuşdur (*şək. 6*).

Ölçücə əvvəlkindən kiçik olan dəstək nəbati naxışlı dərin oymalarla bəzədilmişdir. Ermitajdakı poladdan düzəldilmiş dəbilqə (misurka) bu abidədən heç də geri qalmır (*şək. 7*). O, burma saplaqlar və zanbaqlar yaradan, aralarında şəbəkəli medalyonlar və kartuşlar yerləşdirilmiş qızıl qaxma ilə bəzədilmişdi. Həmin tərtibat XVI əsrə aid böyük, mis dəbilqədə də müşahidə olunur (*şək. 8*). Bu dövrdə parça və keramikada istifadə olunan üsulla işlənmiş və özündə yazıları və sərv ağacı, zanbaq və arabeska təsvirlərini birləşdirən dekor dəbilqənin çələngində və üst hissəsində verilmişdir.

XVIII-XIX əsrlərə aid silahların bəzədilməsində əvvəlki kimi yüksək növlü qızıl, gümüş, polad, qiymətli daşlar, oyma ağac və sədəf, buynuz və fil sümüyü, nefrit və əqiq, firuzə və mərcan geniş istifadə olunurdu.

Məmulatların dəbdəbəsinə və bahalılığına göstərilən meyl sənətkarlığın və ciddiliyin itirilməsi ilə nəticələnirdi.

Trabzon və Ərzurumdan başqa, yalnız paytaxtda deyil, ona yaxın bölgələrdə də hazırlanan nümunələr göstərir ki, bu dövrdə silah istehsalı mərkəzləşmə xüsusiyyətini itirirdi.

Bu dövrdə Qafqazdan gətirilmiş və "kama" ası ilə tanınan, uzun və düz ikiağızlı tiyəsi olan, dəstəyi və qını mərcanla və gümüşlə bəzədilmiş xəncər istifadə olunurdu. XIX əsrin əvvəllərində Şərqi Anadolunun türk əyalətlərində, Valaxiyada, Moldovada, Serbiyada, Albaniyada, Yunanıstanda xüsusi növlü, orijinal dekorlu qılınclar istehsal edilirdi.

Orta əsr türk döyüş əşyalarının (dəbilqə, dəmir geyim, zireh, qolçaq və s.) möhtəşəm nümunələri İstanbulun "Askeri muzesi"ndə və dünyanın bir çox digər muzey kolleksiyalarında saxlanılır (*şək. 9*).

Türk zirehli geyimləri digər Şərq ölkələrinin geyimləri ilə tipoloji və konstruktiv uyğunluğa malik olmaqla bərabər, möhkəmliyi və xırda toxunuşu ilə seçilir. Yuxarıdan və aşağıdan zireh tor bərkidilən, qurşaqda bağlanan dəmir geyimin bel hissəsi döymə dəmirdən hazırlanırdı. I Sultan Səlimin İstanbul muzeyində saxlanılan zirehli geyimi bu geyimlərin ən gözəl nümunəsidir.

Türk ustalarının düzəltdiyi qolçaqlar bəzək-lə-rinin zənginliyi ilə valeh edir, burada dekorların bütün üslubları: çərtmə, mərcan və firuzə ilə naxışlanmış qaxma istifadə olunub. Ən sadə qolçaqlar gümüş üzərində oyma və qarasavad ilə bəzədilmişdir.

Təhlil etdiyimiz orta əsr türk silahlarının və döyüş əşyalarının bəzəyində dini mazmuna müvafiqlik və nəbati motivlərdən istifadə zəngin yerli bədii-texniki dekor ənənələrindən xəbər verir.

## ***İRAN SİLAHLARI***

Tunc dövründə təşəkül tapmağa başlayan İran silah sənəti Əhəmənilər və Sasanilər zamanında yüksək inkişaf yolu keçmiş qədim ənənələrə malikdir. Lakin bu istiqamətdə ən yüksək nailiyyətlər orta əsrlərə aiddir.

XVI – XVII əsrlərin təntənəli silahları bu gün də öz gözəlliyi ilə insanı valeh edir. İran ustaları məmulatların bəzədilməsi üçün qızıl, qiymətli daşlar, firuzə və mirvaridən istifadə edir, ənənəvi qızıl və gümüşlə həkk etmə naxışvurma üsullarından yararlanırdılar. İran silahlarının sarmaşan arabesk və zoğların "hörülmüş" ornamentləri dəbilqələrin, qılınc tiyələrinin formasına və sahəsinə müvafiq seçilirdi.

İran silah ustaları və nəqqaşları tiyə, qın, qılınc və dəbilqələri xüsusi ornament kimi qəbul olunan dini, poetic nümunələr, xeyir-dua yazıları ilə bəzəyirdilər.

Silahın bir çox hissələri – qılıncın qını, toppuzlar, təntənəli qalxanlar – qiymətli daş hissələrinin (müxtəlif nefrit çalarları, əqiq, yəşəm və dağ bülluru) qızılla effektiv qaxma üsulunu nümayiş etdirir. Daşın cilalanmış səthi üzərində nazik qızıl naxışları qızıl gül kastaları yerləşdirilmiş xırda ölçülü yaqutlarla uyğunlaşaraq məmulata qeyri-adi gözəllik bəxş edirdi.

İranın silah istehsal edən ən böyük şəhəri İsfahan idi. İsfahan ustaları öz məmulatlarını yalnız qeyri-adi nəbati naxışlarla bəzəməklə kifayətlənmir, buraya həmçinin insan fiquru, atlı təsviri də daxil edir, yırtıcıların təqibini və heyvanların mübarizəsini canlandıran ənənəvi motivlərdən istifadə edirdilər.

İran silahlarının yüksək bədii nümunələri XVI-XIX əsrləri əhatə edir. Məhz bu dördə İranda silahlar yeni, inkişaf etmiş dekorativ emal və bəzək üsulları ilə zənginləşir, tüfəngsazların istehsal etdikləri məhsulların dəyəri və bədii-texniki məziyyəti artır.

Bu dövrdə İran silahı, onun təsnifat, texniki və dekorativ keyfiyyəti ümumən Şərq kontekstində inkişaf etsə də, üslub və motiv dekorlarında daha çox sezilən ənənəvi xüsusiyyətləri ilə yadda qalır.

Dünya kolleksiyalarında nümayiş etdirilən soyuq və odlu silah nümunələrinin bədii-texniki təhlili bütün əsas təsnifat qruplarında olan əsl İran tipli silahları (xəncər, qılınc, zirehlər, odlu silah) haqqında danışmağa imkan verir.

İranda ta qədim zamanlardan milli formalı və sivri tiyəli Orta Asiya tipli xəncərlər yayılmışdır. İlk baxışdan İran xəncərlərinin türk xəncərləri ilə konstruktiv oxşarı olsa da, onlar daha gözəl və ölçü baxımından kiçikdirlər. Xəncərlərin çox iti olan tiyələri hərbi keyfiyyət naminə sona doğru getdikcə yoğunlaşır. İran xəncərləri üslüb müxtəlifliyinə görə iki qrupa bölünür:

1. düz tiyəli xəncər – "kama"
2. sivri tiyəli xəncər – "bebut" (34. 249) (*şək. 10, 11*).

Tutacaqlar, adətən fil sümüyü, yaxud tünd buynuzdan hazırlanır, taxta qınlar isə dəri ilə üzlənirdi. Bu halda, adətən ləvazimat komplekti olmur, hətta aşırma qayışın halqası da çox vaxt hazırlanmırdı.

İran xəncərlərinin tiyələri səth boyu qızıl çərtmə, yaxud xırda gül ornamenti, heyvan təsviri (ən populyar mövzu – xallı maralı parçalayan şir) ilə bəzədilirdi. Sümük xəncər dəstəklərində məişət səhnəsi, ərəb yazılarından ibarət ornament tətbiq edilirdi (*şək. 12*).

XVII əsrə aid Ermitaj nümunəsi düz tiyəli İran xəncərlərinin ən səciyyəvisidir. Uzunluğu 44 sm olan xəncərin hazırlanmasında polad, qızıl, fil sümüyü və qiy-mətli daşlar tətbiq olumuşdur.

Fil sümüyündən hazırlanmış tutacağın örtüyü gümüşdəndir və üzərində gül ornamenti yaradan firuzə taxmalı qızıl var. Qın üzəri küknar motivi ilə oyulmuş qızıldan hazırlanmışdır. Qının radial relyef xətlərlə işlən-miş ucu məscidin günbəzini xatırladır.

İran xəncərlərinin sivri tiyəli (bebut), sümük dəstəkli, üzərindəki medalyonda şah və nökərləri təsvir olunmuş tipik nümunəsi Milli Azərbaycanın Tarix Muzeyindədir (*şək. 13*). Medalyonun qabarıq naxışı üst və alt tərəfdən nəstəliq xətlə yazılmış sözlərə əsrarəngiz harmoniya yaradır. Təsvirin xüsusiyyəti, geyim tərzi, mərkəzi personajın görünüşü, onun "iri başlılığı" xəncəri XVIII əsrin məhsulu kimi dəyərləndirməyə imkan yaradır. Xəncərin medalyondaxili təsvirinin XVIII əsrin kitab miniatürləri ilə oxşarlığı onların eyni vaxtda yaradıldığını və ümumi üslub prinsiplərinə malik olduğunu göstərir.

Milli Azərbaycan Tarix Muzeyinin kolleksiyasında epiqrafikasız, medalyonunda orta əsrlərə uyğun taxt-tacda hökmdar əsası ilə oturmuş şah təsviri olan daha bir xəncər mühafizə olunur. Onun dəstəyində trapesiya şəklində olan kartuşda yerləşdirilmiş naxış var. Burada iki gəncin heraldik tərzdə təsviri nəzərə çarpır.

Dəstəyi və qını qızıldan düzəldilmiş və güllərlə tərtib edilmiş "bebut" növlü fars xəncərinin ən gözəl nümunəsi Ermitajdadır (*şək. 14*). Qın və tutacaq ornament baxımından uyğundur, yalnız arakəsməli mina texnikasında icra olunan güllərin və yarpaqların ölçüsünə görə seçilir. Qının əsasını yaqut taxmalarla yaradılmış medalyon kompozisiya təşkil edir. İşləmələrin mükəmməlliyi və qiymətli taxmaların zənginliyi silahın İranın yüksək zadəganlarına aidliyini göstərir.

XVIII əsrə aid "bebut"un növlərindən biri də tünd rəngli palıd tutacaqlı (saplı) xəncərlər olmuşdur. Sümüklü tutacağı olanlarla müqayisədə onların forması daha gözəl, dəstəyi dekorativdir, tutacağı nəbati naxışlarla bəzədilmişdir. Bu xəncərlərin palıddan düzəldilmiş qınları gümüş qurşaqlarla əhatə olunmuşdur.

İran xəncərləri uzun tiyələrə malik klassik Şərq silah nümu-nələridir. Onlar nazik, bir qədər əyri, yüngülcə əyilmiş tiyələrə malikdirlər. O qədər də böyük olmayan nazik tutacağın kiçik başlığı və düz uzun çarpazı vardır. Taxta qına adətən, basmanaxış dəri yapışdırılır, alət isə iki patron daraq və ucluqdan ibarət olur. Bu qılınclar arasında tiyəsi ucuna doğru qalınlaşan nümunələr də rast gəlinir.

Ən məşhur və geniş yayılmış İran qılıncı olan "şəmşir", XVI əsrin ortalarından etibarən Hindistan və qonşu ərəb dövlətlərində də istifadədə idi. Şəmşir ("şirin caynağı" kimi əyilmiş) çox əyri və tədricən daralan porabolik tiyəyə malikdir. Adətən, hind-müsəlman üslubunda tutacağa malik belə tiyələr "talvar" kimi təsnif edilir. Farsların və hindlilərin hazırladıqları şəmşir tipli tiyə islam aləmində çox yayılmış və yerli tutacaqla istifadə olunurdular.

Şəmşir tiyələri üzərində bir, yaxud çoxlu sayda yazılar olurdu: ustanın, xəncər sahibinin adı, hökmdara aid məlumatlar, "Quran"dan sitatalar və qoruyucu rəmzlər. Ən məşhur şəmşir istehsalçısı – ustad Əsədulla (yaxud: Əsəd Allah, Əsəd Ullah, Əsədulla) 1588-1629-cu illərdə İsfahanda – Şah Abbasın dövründə Fars imperiyasında işləmişdir. Əsədullahın həyatı ilə bağlı heç bir faktiki məlumat yoxdur. Əsədullaya aid tiyələr yazının tərzi, yazıldığı yer, üslub və texnikası ilə fərqlənir. O dövrün digər məşhur ustası Əssədullahın oğlu Qəlb'Əli də (yaxud: Quli Əli) çoxlu sayda yazıların müəllifidir. Ehtimal ki, bütün tiyələr adı çəkilən usta, yaxud emalatxanaya

aid deyildir. Güman ki, tarixilik baxımdan müvafiq olmayan yazılar müasir alıcıları aldatmaq üçün nəzərdə tutulmamışdır. Deməli, bu yazılar sadəcə olaraq tilsimlərdir (*şək. 15*). Doğrudur, avtoqrafa dair fikirlər müxtəlifdir – "Əsəd-ullah"ın hərfi tərcümədə "Allahın şiri" (ərəbcə) mənasını verir, şiə adətinə görə isə "Allahın şiri" İmam Əliyə işarədir. Şiəlik baxımından Əli (şir kimi qorxmaz) Allahın gücü, yaxud Allahın cəzalandıran qılıncıdır. Beləliklə, "əsəd-ullah" – şiələrin inancına görə, Allah tərəfindən seçilən Əlinin silahının böyük gücü mənasını ifadə edir.

Fars şəmşirlərinin çox vaxt taxtadan olan qınları dəri, məxmər, dəmir, yaxud bu metalların qarışığı ilə üzlənirdi.

Fars şəmşirlərinin (XVII əsrin II yarısı) ilk nümunəsi Moskva Silah Palatasının kolleksiyasındandır (*şək. 16*). Tutacaqdan başlayaraq qızıl qaxmalı sıx nəbati ornament tiyənin üçdə bir hissəsini əhatə edir. Bu kompozisiyanın mərkəzində üç kartuş (kətəbə) yerləşdirilmişdir. Onlardan birində ustaların adları vardır: polad tiyələrin məşhur ustaları Əhican və Həsən. Qılıncın çarpazı və tutacağın ucluğunda oyma naxışlı qızıl örtüyü vardır. Tutacağın özü qara ağacdan hazırlanmış iki növ taxmadan ibarətdir. Qılıncın ağacdan hazırlanmış qını da oymalı qızıl örtüklüdür. Onların naxışları spiralabənzər nəbati motivlərdən hazırlanmışdır. Şəmşirin uzunluğu 116,5 sm-dir.

XVIII əsrdən etibarən İranda türk yatağanı tətbiq edilir, lakin İran qılınclarının əksəriyyəti milli şəmşir formasını saxlayır.

XIX əsrdə İran şəmşirlərinin bəzəyi sadə olurdu. Tiyə və qınların asketcəsinə bəzədilməsində daha çox gümüşü səth və simlər tətbiq edilirdi.

Orta əsrlərdə İranda qılənclarla yanaşı, hərbi və təntənəli təbərzin baltaları yayılır. Təntənəli təbərzin və ikiqat, aypara formalı təbərzin ən yüksək bədii dəyərlərə malik idi. Görkəmli Azərbaycan tarixçisi və epiqrafçısı Məşədixanım Nemət hesab edir ki, bu təbərzinlərin forması bu ərazidə yaşamış mistik kultlarla bağlıdır (11. 293).

İran təbərzinləri Şərq təbərzinləri kimi hərbi funksiyadan daha çox rəsmi funksiyanı yerinə yetirirdi. Onlar hərbi geyimə əlavə olunur və sahibinin mühüm və varlı şəxs olduğunu bildirirdi. Bunu təbərzinlərin zəngin dekoru, xeyirxah və ayin məzmunlu çoxsaylı yazılar da təsdiq edir. Dekor xüsusiyyəti və məzmunu baxımından Milli Azərbaycan Tarixi Muzeyində mühafizə olunan təbərzin XVIII əsrin İran silah nümunəsi kimi maraq doğurur. Tutacağı qara palıddan hazırlanmış təbərzinin uzunluğu – 23 sm, eni – 15 sm-dir, hər iki tərəfində naxışlı, epiqrafikalı xonça var ("nəsh" xətti). Yazılar zərif gül ornamentinin içərisində həkk olunmuşdur.

Məşhur epiqrafçı Məşədixanım Nemət yazını bu şəkildə tərcümə etmişdir: "Kömək Allahdandır və qələbə yaxındır. Əlidən yaxşı döyüşçü, Zülfüqardan yaxşı qılınc yoxdur" (11. 294).

Həmin muzeyin kolleksiyasına daxil olan İran təbərzini simmetrik şəkildə bir küp hissədə birləşmiş iki oraqşəkilli baltadan ibarətdir. Bu təbərzinlə müxtəlif istiqamətlərə zərbə endirməkolar. Təbərzinın üzərində eyni motiv – naxışlanmış gül fonunda qaban təsviri iki dəfə təkrarlanır. Bildiyimiz kimi, Şərq folklorunda qaban güc rəmzidir (*şək. 17*). İran təbərzinin növlərindən olan baltanın küpü döyüşçü dəbilqəsinin stilizə edilmiş formasında hazırlanır və düşmənin dəmir geyimini, yaxud zirehini deşmək üçün nəzərdə tutulur. Nacağın baltası tamamilə metaldan hazırlanmış və düşməni sancan nizəyə malikdir (*şək. 18*). Təbərzinin dekoru heraldik şəkildə yerləşdirilmiş, başlarında isə şah tacı olan şir təsvirlərindən ibarətdir.

İran ustaları digər silahlarla yanaşı, düşmənin zərbəsindən qorunmaq üçün hərbi qalxanlar da hazırlayırdılar. Bu qalxanların yüksək hərbi və bədii özəllikləri onları həm hərbi ammunisiyasının mənsubiyyətinə çevirir, həm də hərbiçinin hərbi-sosial statusunun göstəricisi rolunu oynayırdı. Hərbi zirehlər arasında mühüm yer tutan dəbilqə döyüşçünün başını qılınc, yaxud toppuzdan qorumaqla bərabər, eyni zamanda sahibinin maddi-rifahını, bədii zövqünü nümayiş etdirən zireh növü olmuşdur.

Dünya kolleksiyalarındakı İran dəbilqələrinin əksəriyyəti XVII əsrlə – hərbçinin metal dəbilqəsinin ən vacib yaraq-əsləhə atributu olduğu dövrlə məhdudlaşır.

Öz dəbdəbəli bədii xüsusiyyətlərinə görə seçilən İran dəbilqələrindən biri Milli Azərbaycan Tarix Muzeyinin kolleksiyasındadır (inv. № 47/63-708).

Bu tip dəbilqə oxvari buruna və iti metal qübbəli təpəyə malik olduğundan "şişək" adlanır (*şək. 19*). Dəbilqənin üstü 8 yumru və oval formalı süjetli xonçalarla bəzədilmiş, onların perimetrlərində isə "nəsx" xətti ilə

“Quran” yazıları həkk etdirilmişdir. Xonçalarda aşındırma üsulu ilə döyüş səhnəsi təsvir olunmuşdur. Gözəl formaya malik dəbilqənin təpəsi minarə qübbəsini xatırladır. Üstünün dekoru isə xırda nəbati ornamentlərdən ibarətdir. Dəbilqənin alt hissəsinə döyüşçünün boyun və çiynini müdafiə edən torlu, halqalı zireh bağlanmışdır.

Dəbilqənin incəlikklə tapılmış diametr nisbəti, qübbəşəkilli formasının və təpəsinin maililiyi səthinin zəngin dekoru ilə birgə, onu silah sənətinin şah əsərinə çevirir.

İran silah ustalarının hərbi və xüsusən təntənəli qalxanları qeyri-adi gözəlliyə malikdir. Əksəriyyəti 60-80 sm diametrli (qalınlığı 1.5-2.5 mm) və çəkisi 4,5 kq-dək olan metaldan hazırlanan bu qalxanlar, düşmənin atıcı və deşici silahlarından ciddi qoruyucuna şevirilirdi. Daxildən dəri yapışdırılmış qalxanlar metal üzrə oyma ustaları üçün geniş imkanlar yaradırdı. Əyri (menisk sayağı) səthə malik qalxanlar süjet, ornament və epiqrafik elementlərlə bəzədilirdi. Təntənəli qalxanlarda təsvirlər və yazılar qızıl, gümüş, bəzi hallarda isə qiymətli daşlarla (firuzə, əqiq və s.) bəzədilirdi.

Adətən, İran qalxanlarının mərkəzində iranlıların tilsimi (qoruyucusu) olan antropomorf qorelyef günəş forması (xurşid) və içəri tərəfdə yerləşən tutacaqları gizlədən 3-8 sm diametrə malik, bəzən antropomorf, yaxud zoomorf məzmunlu dörd metal kürə yerləşdirilirdi.

XVIII əsrin İran qalxanlarının ən gözəl nümunələrindən biri Moskva Silah Palatasında mühafizə olunur (*şək. 20*). Qalxanın kürəşəkilli səthinin mərkəz hissəsini qızılla naxışlanmış günəş şüaları, onların araları isə nəbati ornamentlə bəzədilmişdir. Yumru və oval formalı xonçalar qalxanın içərisinə yaxın yerləşdirilmiş və qoruyucu sözlərlə, xeyir-dua ilə tamamlanmışdır. Bütün yazılar və ornamentlər aşındırma üsulu ilə yerinə yetirilmişdir.

İran ustalarının hazırladıqları təntənəli yaraq-əslələri arasında qolçaqlar (bazubənd) öz zərifliyi və gözəlliyi ilə seçilir.

Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasında olan qızıl suyuna salınmış qolçaq şah ovu və hərbi döyüşlər səhnələrinin təsviri ilə bəzədilmişdir (*şək. 21*). Şəkillərin üslubu XVIII əsrin xalça və kitab illüstrasiyalarını xatırladır.

Bu muzeydə həmçinin hərbi gürzdən yaranan şah əsası da vardır (*şək. 22*). Bu kompozisiyada əjdahanın ağzında insan başı təsvir edilmişdir. Əsanın səthi aşındırma üsulu ilə naxışlanmış əjdaha axçaları ilə bəzədilmişdir. Bəzi yerlərində qızıl qalığı olan əsanın içiboş olduğunu və ölçüsünü nəzərə alaraq, əminliklə demək olar ki, o hərbi yox, təşrifat məqsədi üçün istifadə edilmişdir.

## *ƏRƏB SİLAHI*

Yaradıcılığın bədii quruluşunun əsası olmuş və çox zaman yüksək koloristik səslənməyə və mürəkkəb ornamental ritmə malik zəngin naxış sənətini doğuran Sərgi Ərəbistanın silah sənətində dekorativlik xüsusilə parlaq və özünəməxsus cizgilər qazanırdı.

Orta əsrlərin dünyagörüşünün məhdudiyyətləri çərçivəsində ərəb Şərqin rəssamları onları əhatə edən həyatın zənginliklərini əks etdirən öz ifadə yollarını tapdılar.

Orta əsrlərin düyagörüşünün məhdidiyyətləri çərçivəsində ərəb Şərgin rəssamları öz həyatlarının ifadə yolunu tapdılar. Naxışın ritmi, onun “xalçalılığı”, ornament formasının incə plastikliyi, təkrarsız, parlaq və təmiz rəng çalarlarının harmonikliyi ilə onlar böyük estetik məzmun ifadə edirdilər.

Orta əsrlər Ərəbistan sənətində böyük rola malik “Gözlər üçün musiqi” adlanan ornament indi də öz əhəmiyyətini qorumaqdadır. O, müəyyən dərəcədə bəzi sənət növlərinin təsviri məhdudiyyətini əvəz edir və ədəbi məzmun ifadə edən ən vacib vasitələrdən biri hesab olunur. Orta əsrdə Şərq ölkələrinə yayılmış, klassik motivlərə söykənən arabeska, kompozisiyanın ən yeni növü kimi rəssamlara tortəki hörülmüş səthləri naxışla tamamlamağa imkan yaradırdı. İlk mərhələdə arabeskada nəbati motivlər üstünlük təşkil edirdi. Sonralar xətti-həndəsi, mürəkkəb çoxbucaqlı və çoxşüalı fiqurlardan ibarət “girih” yayılmağa başladı.

Ərəb Şərgin ustaları nəhəng memarlıq abidələrinin səthlərinin və müxtəlif silahların bəzədilməsində böyük sənətkarlıq nümayiş etdirirdilər. Onların yaradıcılıq nümunələrində iki əsas harmoniya yaranırdı: naxışın məntiqi-ciddi riyazi quruluşu və bədii fantaziyanın ruhlandırıcı rolu.

Epiqrafik ornamentin – dekorativ naxışa yazı elementlərinin daxil edilməsi orta əsr ərəb incəsənətinin xüsusiyyətlərindəndir. Yeri gəlmişkən, qeyd edək ki, din digər incəsənət sahələri ilə müqayisədə kalliqrafiyanı daha çox ruhlandırırdı. Məsələn, müsəlman üçün "Quran"dan yazıları köçürmək ibadət hesab olunurdu. Bədii yaradıcılığın dekorativ-tətbiqi quruluşu incəsənətin müxtəlif sahələrində özünəməxsus şəkildə öz həllini tapırdı.

Tətbiqi sənət sahələri ərəb Şərqi ölkələrinin bədii mədəniyyətində mühüm rola malik olmuşdur. Bu sahənin intensiv inkişafı iqtisadi mənbə hesab olunurdu. Bədii sənətkarlıqda xalqın məişəti ilə bağlı yerli, qədim ənənələr xüsusi yer aldılar. Tətbiqi incəsənət ustaları olan ərəblər üçün "əşyanı hiss etmək", onun praktik funksiyalarını qorumaq, gözəl forma (quruluş) vermək və üzərində naxış vurmaq yüksək estetik xüsusiyyətdir. Şərq Ərəbistanın silah sənətində ornamentin mədəni əhəmiyyəti, yüksək bədii imkanları müəyyənləşdi. Ornament ərəb xəncəri, qılıncı, qalxanı, dəbilqəsi və s. kimi digər silah növlərinə bir estetik məzmun bəxş etdi.

İnkişaf etmiş silah sənəti ənənələri Abbasilər Suriyasında, daha dəqiq desək, poladın vətəni – Dəməşqdə yaranmışdır. "Dəməşq poladı" ərəb silahının keyfiyyət nişanı idi.

Erkən orta əsrlərdə nizə, qılınc, kaman, kiçik qalxan, dəbilqə – şişək, əyinə taxılan dəmir geyim, nadir hallarda isə haldalı at sipəri və s. əhatə edən ərəb silahkarlığı Bizans və Sasani silahkarlığından heç də güclü deyildi, hətta demək olar ki, zəif idi. Ərəblərin mühasirə silahı yox idi (lakin yandırıcı məhlulları var idi). Bununla belə, şəhərlər onlara tez təslim olurdu (60. 167).

Ərəb atlısı başdan ayağa müxtəlif və qiymətli silahlarla təchiz olunurdu. Döyüşçünün mütləq aşırma heybədə 2 kamanı, 30 itilənmiş möhkəm saplı və dəmir pərli, oxu, uzun bambuk nizəsi (ən yaxşı dəmir ucluqlu), iti uclu tullayıcı diski, iti qılıncı (deşən və kəsən), hərbi toppuzu, yaxud iki tərəfli iti baltası, ləvazimat torbasında 30 daşı olmalı idi.

Ərəb döyüşçünü qoruyan zireh – dəmir geyim, papağa taxılan dəbilqə, 2 qolçaq, 2 ayaq sipəri və 2 yan qoruyucusundan ibarət idi. Səfər zamanı atları ağır nalla nallayırdılar. Ərəblər elə qılıncları var idi ki, düşmənin atlarını şaqqalamağa malik idi.

Suriya xəncərləri ümumi formasına görə türk xəncərlərinə oxşasa da, bir qədər qısalığı və çox da əyri olmayan tiyəsi ilə fərqlənir. Eyni zamanda qınlar kəskin əyridir, sona yaxın əyilmə 180°-ə çatır. Suriya xəncərlərinin tutacağı çox yastıdır, tağa oxşar sonluğa malikdir. Çox vaxt qın və tutacaqlar dəmirdən hazırlanır, ornamenti ərəb yazılarından ibarətdir. XVI əsrdən etibarən Suriyada bebut tipli, tiyəsi kəskin şəkildə əyilmiş, ərəbcə "cambiya" adlanan xəncəri yaranır (*şək. 23*). Enli, kəskin əyriliyi olan cambiyanın tiyəsinin naxışsız vadisi vardır. Xəncərin dekoru, gülü xatırladan zər və hörmə ilə bəzədilmiş gümüş tutacaqdan ibarətdir. Qınlar gümüş sonluğu olan misdən hazırlanmışdır. Burada ərəb xəncərlərinə uyğun xüsusiyyətlər – çox əyilmiş enli tiyə və tutacaq nəzərə çarpır.

Tiyə və tutacağın mütənasib nisbəti də türk və İranın xəncərlərindən fərqlənir. Onlarda nisbət 1:4, Qafqaz xəncərlərində isə 1:5 – 1:6-dır.

Ərəb xəncərləri arasında 500 mm əyri tiyəyə və mürəkkəb tutacağa malik Mərakeş xəncəri var. Onun tiyə və tutacaq nisbəti türk xəncərində olduğu kimidir. Şeyxlərin, qəbilə başçılarının silahı kimi o, sahibinin yüksək mövqeyini nümayiş etdirirdi.

Kabil tayfası ilə bağlı olan "flissa" adlı qılınclar da Mərakeş silahındandır. Onların bir tərəfdən iti olan tiyəsi bürünc qaxma ilə bəzədilmişdir.

Yalnız müsəlman dünyasında deyil, eyni zaman-da Avropada da məşhurlaşan ərəb qılıncları və xəncərləri böyük maraq doğurur. Yarımadada ən çox yayılmış qılınc, təbii ki, şəmşirdir. Lakin ərəb şəmşirləri fars şəmşirlərinə müvafiq olaraq bir qədər əyilmiş formaya malikdir. Onun əyriliyi tiyənin üçdə bir hissəsindən başlayır.

Onun ən məşhur nümunəsi Ermitajda saxlanılır (*şək. 24*). Hər iki qılıncın tiyələrində tilsimli, bəzəkli medalyonlar vardır. Tutacaqların taxta döşəməsi gümüş məftildən inkrustasiya olunmuşdur.

Əsrlər boyu ərəbdilli xalqları birağızlı qılınclarla yanaşı, yalnız deşici deyil, həmçinin doğrayıcı ikiağızlı qılınclardan da istifadə etmişlər. Ərəblərin qılınc və xəncərlərinin uzunluğu 90-110 sm-dir. Bu, atlı döyüşçünün qılıncının yerə toxunması üçün nəzərdə tutulurdu. Tutacaqlar sümük, ağac, gümüş və qızılla bəzədilirdi. Bəzək

baxımından ən gözəl nümunələr Məmlük dövrünə, “ərəb İspaniyası” və XIV-XVI əsr-lərin “müsəlman” Afrikasına aiddir. Bundan sonra yaranan qılınclarda dekor məhdudlaşır və tiyələri yox, tutacaqları qiymətli olur.

Ərəb qılıncları arasında əyri tiyəyə malik olan qılınc “saif” adlanır (*şək. 25*). Onun ağır və əyilmiş tutacağının üzəri caynaqlı pələng pəncəsinə, yaxud asılı qotaza bənzəyir.

Düz tiyəli xəncərlərin 2 növü vardır: düz və sona yaxın enliləşən. Bu növləri ayrı-ayrı ərəb şeyxlərinə xas olan dəstəklərlə fərqləndirmək mümkündür.

Bu xəncərlərdən biri məşhur şeyx “Bu-Əbdilin” adını daşıyır və “Metropoliten” muzeyinin kolleksiyasına daxildir. Tutacağı və quruluşu digər məşhur ərəb şeyxi Əli Əttarın xəncəri ilə uyğundur. Bu xəncərlərdə sırf ərəb formasına müvafiq qardalar ərəb tağına bənzədilmişdir. Bu cür xəncərlər təsnifat baxımından “skimitar” adlı ərəb xəncərlərinə aiddir.

Skimitarın dəstəklə tiyə ayırıcısı özünə-məxsusdur. Onun çarpazının sonu tutacaq tərəfə yox, tiyə tərəfə yönəlir və bununla əli düşmənin zərbəsindən qoruyur. Ehtimal ki, XIII əsrdən yayılan skimitarlar Kardova xilafəti dövründə İspan xəncərinə oxşadılmış və Qranadada yayılmışdır (43. 317) (*şək. 26*).

Ərəb hərbi xəncərləri dekor, üslub xüsusiyyətləri baxımından fərqlilikləri ilə müsəlman Şərqinə uyğun tipoloji müxtəliflik nümayiş etdirir. Qeyd etmək lazımdır ki, ağır qalxanlar ərəb ordusuna aid deyil; çünki onlar yüngül süvari qoşundan ibarətdir. Zirehləri yalnız ağır silahlandırılmış elit süvarilər və yüksək rütbəli hərbiçilər – şeyxlər gəzdirirdilər.

Xəncərlərin xüsusi elementi ərəb məscidini xatırladan günbəz formalı mis, yaxud polad dəbilqədir. Ərəb dəbilqələrində fars və Qafqaz dəbilqələrindən fərqli olaraq, çiyinüstü yoxdur. Boyun dəbilqənin davamı olan və ondan asılan çuğulla müdafiə olunur (*şək. 27*). Döyüşçünü müdafiə edən “burunluq” şaquli istiqamətdə (hərbi, mülk halda) qalxır və enirdi (*şək. 28*). Qalxanın dekoru dəbilqənin haşiyəsindən başınadək qısalan kəmərin istiqamətində yerləşən nəbati və epiqrafik elementlərdən ibarətdir.

Forma gözəlliyinə və bəzəyinə görə Metropoliten muzeyində mühafizə edilən dəbilqə ənənəvi Şərq dəmir çiyinlikləri arasında seçilir (*şək. 29*). Bu dəbilqə Suriyada hazırlanmış və məmlük sultanı Xəlil Salah əd-Din ibn Həlaünə məxsusdur (1293-1341). Şişək tipli dəbilqə üzərində “süls” xətti ilə “Quran” yazıları olan enli zolaq və nəbati motivlərlə bəzənmiş qızıl qaxma ilə bəzənmişdir.

XV-XVI əsrlərin ispan-mavritaniya tipli ərəb dəbilqələri təkraredilməz forrmaları ilə seçilir. Avropa üslublu ərəb dekora malik bu dəbilqələrdə “şişək” yoxdur və o, Avropanın dəmir dəbilqəsini (hərbi kaskanı) xatırladır. Bu dəbilqələrin ən gözəli lord Astorun kolleksiyasından götürülmüş və Metropoliten muzeyində mühafizə olunan nümunədir (*şək. 30*). Poladdan (1.7 kq) hazırlanmış dəbilqə qızıl qatla örtülmüş gümüş nəbati qaxma bir neçə oymalı xonçalarla bəzənmişdir.

Misir məmlük sultanlarının təntənəli hərbi və mərasim silahlarına balta da əlavə edilirdi. Lakin onlar hərbi mahiyyət daşımır, yalnız mərasim üçün nəzərdə tutulurdu. Ərəb təbərzinləri İran və Azərbaycan nacaqlarından daha assimetrik idi. Nacağın küpü quş, yaxud heyvana bənzədilirdi. Bu nümunələrə Qahirə muzeyində rast gəlmək mümkündür (*şək. 31*). Nacağın küpü şahinə bənzəyir, qalxan tipli səth isə sultanın titullarının həkk olunduğu xonça ilə bəzədilmişdir.

## *ORTA ASİYA SİLAHI*

Səmərqənd Teymur dövründən etibarən ta XVI əsrin sonunadək Orta Asiyada silah istehsalının mərkəzi hesab edilmişdir. İspan səfiri Klavixonun məlumatına görə, XV əsr Səmərqənd silahının keyfiyyəti bir o qədər də yüksək olmamışdır. Qalxanları hazırlayan ustalar dəmiri yaxşı bərkidə bilmədiklərindən, geyim davamlı olmurdu (30. 294). Lakin XV əsrin II yarısında istehsal keyfiyyəti yüksəlmiş və silah ustalarının (cabatab) hazırladıqları məhsullar orta əsr Teymurilər dövlətinin sərhədlərindən uzaqlarda da məşhurlaşmışdır. Səmərqənddə bir çox digər ustalarla yanaşı, yalnız müdafiə silahları üzrə ixtisaslaşmış ustalar da fəaliyyət göstərirdilər. Silah ustalarının bütöv bir nəsli yaranırdı. Cabatablar cavanlara bu sahənin incəliklərini öyrətmək üçün 2 il onları himayə edirdilər.

XVI-XVII əsr Orta Şərq peşə sənayesində silahın istehsalı böyük əhəmiyyət kəsb edirdi. Buxara, Xivə, Səmərqənd, Kokand və digər şəhərlər öz məhsulları ilə məşhurlaşmışdılar. XVII əsrdə Özbəkistanda, Buxarada hazırlanmış qiymətli silahlar: qiymətli daşlarla, qızılla, gümüşlə bəzədilmiş qılınc, bıçaq, həmçinin bəzən qızılla bəzədilən Buxara oxları, lifdən düzəldilmiş saadak (oxluq) çox məşhur idi. Lakin arasıkəsilməz feodal müharibələri şəhər həyatına ağır təsir edirdi. XVIII əsrin ortalarında sənaye çox zəifləmiş, bu da silahqayırmada özünü büruzə vermişdi.

Özbək xəncərləri Orta Asiyada hazırlanan xəncərlərin forma müxtəlifliyini layiqincə təmsil edir. Məsələn, Səmər-qənddə Avropa tipli iti ikitiyəli xəncərlər düzəldilirdi. Onların tutacaq və qınları Avropasayağı düz çarpaz və başmaq, yaxud ucluqda daraq olurdu. Tiyə oyma ilə bəzədilmiş, ləvazimat isə rəngli mina ilə işlənmişdır. Ləvazimat və tiyədə də Orta Asiyanın nəbati ornamenti yer almışdır.

Orta əsrlərdə silah istehsalı mərkəzlərindən biri də Xivə idi. Burada yerli tiyələrlə yanaşı, bəzək kimi xarici tiyələrdən də istifadə olunurdu. Yerli xəncər və Xivə quruluşlu İran və Hindistan tiyələri gümüş, yaxud qızılla, digəri Xivənin soyuq silahları kimi nəbati ornamentlə (alma gülü) bəzədilmişdir. Bununla belə, digər əlvan daşlardan da istifadə olunmuşdur.

Qırğız qılıncı qədim silahlardan biridir. Onların dar, uzun süngüsü zirehin halqalarından keçərək bədəni zədələmək üçündür. olurdu Tutacağının çarpazı qısa olur və köpək balığı dərisi ilə örtülür. Belə materialla silahın sol tərəfi də bəzədilir, sağ tərəfi isə qozağacı qabığı ilə üzlənir. Tutacaqların çərçivəsinin başı və qındakı daraqlar çox vaxt oyma və qarasavat ornamentlə bəzədilmiş gümüşdən olurdu.

Orta Asiyanın hər yerində İran “şəmşirləri”nə bənzər qılınclar yayılmışdı. Adətən, onlar konstruktiv və dekor əlavələrinə məruz qalır. Qılıncı əldə möhkəm tutmaq üçün onu dəri örtüklə sarıyırdılar. Bir-biriləri və İran qılıncları ilə müqayisədə onlar bədii ornamentlə – rəngli daşlarla və firuzə ilə uyğunlaşdırılaraq oyma, zərb etmə, qarasavat, dişəmə, mina, naxış basma, qızıl suyuna salma ilə fərqlənirdilər.

Buxara, Xivə silahlarının bəzəyi firuzə və göy rəngli minadır. Tutacaq və qınların emalında firuzə və mina daha çox tətbiq edilmişdir. Kəsilmiş və möhürlənmiş gümüş bəzən tutacağı və Orta Asiya silahının qınlarını örtür. Buxara və Xivə tiyələri forma etibarilə fars tiyələrinə bənzəyir (*şək. 32*). Aşırma qayışlar iri gümüş, bəzən firuzə qaşlı toqqa ilə bəzədilir.

Burada qılıncların hazırlanmasında fars tiyələrindən istifadə olunurdu. Lakin kiçik elmanlı tiyəsi olan Buxara qılınclarının forması yerli mənşəlidir. Xivə qılınclarının və digər silahların bəzədilməsində dərin pərçimlənmə üsulu ilə işlənmiş simmetrik gül ornamentli ağır gümüş üstünlük təşkil edir.

Orta Asiya qılınclarının tiyələri demək olar ki, düzdürlər, iri qulpları başlığa getdikcə enlənir. Orta Asiyanın iri bıçaqların bəzi növləri qılıncları formasını təkrarlayırlar.

Özbəkistanda Buxara qılıncları çox vaxt naxışlı, yaxud arakəsməli rəngli mina ilə stilizə edilmiş nəbati ornamentlə bəzədilirdi.

Xivə qılıncları alma çiçəyi formalı gül-bitki ornamentli zərb olunmuş gümüşlə bəzədilir.

İri tutacaqlı tacik qılıncları adətən qınları ilə seçilir. Bu qınlar gümüşlə bəzədilmiş assimetrik iri gül ornamentli, çox da dərin olmayan yüngülcə həkk edilmiş naxışla tərtib olunublar. Onların tutacaqları ələ taxılmaq üçün nəzərdə tutulan qoruyucular kimi dəri, yaxud zamşa ilə sarınırdı. Bəzən dəri əvəzinə parçadan da istifadə edilirdi. Buxara qılınclarının qınları, adətən qara dəri ilə örtülürdü, tutacaqlar isə nefritdən düzəldilirdi; firuzə, əlvan daşla örtülürdü və gümüş tutacağın, aşırma qayışın və qının bəzədilməsi üçün istifadə olunurdu. Bu silahların əsas istehsal mərkəzlərdən biri də Fərqanə vadilərində yerləşən, hərbi qılıncları ilə tanınan Çustdur. Çust ustaları Kokand silah məktəbi ənənələrinin davamçılarıdır. Üslub işləmələrindəki fərqlər və “güldor” üslubunda zəngin bəzədilmiş əşyalar onların fərqləndirici xüsusiyyətidir. Tiyələr yerli xüsusiyyətlərə görə fərqlənir: dar və enli, düz və əyilmiş, tutacaqlar isə bütöv və yığılmış, ağac, yaxud sümükdən inkrustasiya olunmuş, yaxud rənglənmiş olur.

XVIII əsr Kokand qınlarının nadir nümunələri Milli Azərbaycan Tarix Muzeyinin kolleksiyasında saxlanılır (*şək. 33*). Burada qınların 2 nümunəsi saxlanılır: düz və əyri tiyəli. Hər iki tiyənin ağzında özbək ustalarına xas

ornament naxışına bənzər nəbati ornament vardır. Oraqşəkilli tutacaq başlığına malik Kokand qını maraqlı forması ilə seçilir. Qara ağacdan kəsilmiş xəncər tutacağı XVIII əsrin məhsuludur.

Digər məşhur Kokand qılınclarında bədii nəbati ornament qarasavad və oyma vasitəsi ilə yerinə yetirilmişdir.

Əfqan qılınclarının tiyələri fars, yaxud hind tiyələrindən fərqlənmir, lakin onların polad çarpazlı tutacaqlarının sonu aşağı əyilmişdir. Əfqan xəncər və qılınclarının ornamentində qonşu ölkələrin təsiri vardır (*şək. 34, 35*). Dəstəklərin və tiyələrin bəzədilməsi üçün naxış, çərtmə istifadə olunur. Ornamentdə tağ, gül, ləçək, firuzə kimi Şərq elementlər, Avropanın nəbati və dekorativ buruqları, çanaqları vardır. Bununla belə, hərbi və silah armaturasına da rast gəlmək mümkündür.

Orta Asiya müdafiə silahlarının təhlilindən öncə, fikrimizcə, bir neçə vacib məqamlar üzərində dayanmaq, daha doğrusu, zirehli geyimin xüsusiyyətlərindən bəhs etmək zəruridir. Dəbilqə taxmış döyüşçülərin bir çoxu Buxara rəssamları tərəfindən xələtlə təsvir olunur. Q.A.Puqaçenkova, buna əsaslanaraq ehtimal edir ki, "halqalı zireh geyimləri sərbəst hərəkətə mane olurdu" və buna görə də "XV əsrə yaxın dəmir zireh geyimləri sadə geyimlərə verir" (87. 27).

Dünya kolleksiyasında saxlanılan silah qalxanlarından əlavə, onlar haqda məlumatı Orta Asiyanın kitab miniatürlərindən də əldə etmək mümkündür (*şək. 36*). Miniatürlərdəki bir çox döyüşçülərin qolbağı və dəbilqəsi vardır, lakin digər ağır zirehlər nəzərə çarpmır. Onlar həmçinin piyadalar və yüngül silahlandırılmış atlılardan fərqlənirlər. Ehtimal ki, onlar zirehi üst geyimin altında gizlədirdilər. Bunun da çox sadə izahı vardır. Orta Asiya günəşi altında zirehli geyim qızır və bu halda qorunmaq üçün xələtlə örtülürdü.

Orta Asiya hərbi dəbilqələri fars, türk və Qafqaz dəbilqələrini xatırladır. Onların ən gözəl nümunələri Teymurilər dövrünə aiddir. Orta Asiya dəbqələrinin daha bir məşhurluq dövrü Özbək xanın (XVI əsr) hakimiyyət illərinə təsadüf edir.

Döyülmüş poladdan iri lülələrə malik Orta Asiya tüfəngləri piltə süngüləri ilə təchiz olunurdu. Demək olar ki, dekorsuz olan lülənin üzərində ustanın, yaxud da sahibinin adı ornamentlə yazılırdı.

Orta Asiyada istifadə olunan silahda Qafqaz silahı ilə müqayisədə daha çox rəng (mina, firuzə) istifadə edilir. İnkişaf təmayülünü ən rəngarəng və bahalı silahları ilə (Teymurilər dövrünün) XIX əsrin ən sadə və ciddi silahları üzrə izləmək mümkündür (*şək. 37, 38*).

## ***QAFQAZ SİLAHI***

Qafqazda dağ xalqlarının hərbi cəhətdən təşkilatlanması ilə əlaqədar olaraq burada silah hazırlama sənəti ta qədim zamanlardan inkişaf etmişdir. 20-60 yaşlı hər bir kişi döyüşçü sayılırdı və hökmdarın əmri ilə öz silahı ilə döyüşə hazır olmalı idi. Buna görə də, hər bir dağlı öz vəsaiti hesabına silahlanır, əgər kasıb idisə, bütün cəmiyyət bu mənada ona kömək edirdi. Hərbi qüvvənin əsasını yığma qoşun təşkil edirdi. Bundan başqa, hökmdarın yanında yaxşı silahlanmış peşəkar döyüşçülər olurdu.

Dağlıların müdafiə silahlarına dəmir qalxan, dəbilqə, əlcək, hücum üçün isə oxlu kaman, qılınc, xəncər, nizə, yaxud mizraq daxil idi. XVIII əsrdə odlu silahların yayılmasından sonra oxlu kamanların və dəmir geyimlərin istifadəsi dayandı və onlar rəmz kimi mühafizə olunmağa başladı.

Qafqaz silahında Şərq silah ustalarının Qafqaz xalqlarının sənət ənənələri ilə zənginləşmiş uzun əsrlik təcrübəsi öz əksini tapmışdır.

Texniki və dekorativ ornament baxımından nəfis bəzədilmiş Qafqaz silahı Şərq xalqlarının bədii mədəniyyətinin və maddi tarixinin nadir hadisəsidir.

Silah Qafqaz ustalarının qiymətləndirdiyi gümüşlə bəzədilirdi. Xəncərlərin əksəriyyəti çərtmə gümüşlə bəzədilmiş, qarasavad, zərb etmə, oyma, zərləmə və şəbəkə kimi üslublardan istifadə edilmişdir.

Ən maraqlı silahlardan biri də dünyada öz keyfiyyəti və bədii quruluşu ilə fərqlənən məşhur Qafqaz xəncərləridir. Həmişə kəmərin üstündə gəzdirilən xəncər tək silah yox, həmçinin qafqazlı kişinin vüqarı idi.

Konstruktiv baxımdan bir qədər fərqlənən xəncər əsrlər boyu müxtəlif Qafqaz xalqlarının əsas silahı olmuşdur. Məşhur Azərbaycan silahşünası S. Cahangirovanın fikrincə, "Qafqaz xəncərinin üslubunu Türkiyə və Cənubi Rusiya xalqları mənimsəmişlər" (42.2).

Qafqaz xəncərlərinin tutacağı və qını forma, dekor zənginliyi və müxtəlifliyi ilə seçilir. Xəncərlərin tutacağı Şimali Qafqazda qara buynuz, cənubda isə oyma bəzəkli ağ sümüklə örtülürdü.

Dağıstan ustalarının bəzədikləri xəncərlər gözəlliyi, ornamentinin mürəkkəbliyi və texnikasının müxtəlifliyinə görə seçilir. Bu ustalar arasında Qubaçı ustaları xüsusilə seçilir. Kolleksiyada qızıl suyuna salınmış sümük, bəzəkli gümüş, zərb edilmiş və savatlanmış, çox mürəkkəb texnikaya malik, sözün əsl mənasında dekorativ və tətbiqi incəsənət nümunəsi olan qınlı xəncərlər vardır.

Silahın bəzədilməsində Lak aullarının Qubaçı zərgərləri başçılıq edirdi. Ornament və yazılar bir çox dillərdə yazılırdı. Burada xüsusən "Quran" surələri (ərəb dilində), Şərq müdriklərinin fikirləri, yaxud sadəcə, sahibə müraciətlə, məsələn: "Ölümdən qorxma, cəsur ol", – kimi ifadələr vardır. Mətnlərin tarixləri çox vaxt müsəlmanların günəş və ay təqvimlərinə uyğun günlərlə eyni olur.

Qubaçı soyuq silahı emalına görə fərqlənir. Onun gümüş hissəsinin bəzədilməsində hamar qara minadan, oyma naxışdan və nəhayət, ən çox zəhmət tələb edən və bahalı üsul olan qarasavatlı dərin oyma (və ya ornamentik ləçəkləri üzrə xırda oyma) texnikasından istifadə olunurdu. Bu texnika adətən, bütün kəsilmiş sahə üzrə tutqun nöqtə şəkilli pərçimləmə ilə bəzədilirdi ki, bunu da qaxma kimi səciyyələndirmək olar (lazımi naxış əldə etmək üçün naxışın konturlarından kənar olan metaldan bütöv hissələr kəsilirdi, və ya əksinə, naxış kəsilirdi, fon isə qalırdı).

Bu müxtəlif üslublar qızıl suyuna salınma (fon, naxış, yaxud bütün qaralmış yer) ilə yerinə yetirilirdi. Qubaçı silah ustaları, həmçinin nişanı qızılla (nadir hallarda gümüş) dəmir, yaxud polad üzərinə vururdular. Sümüklü, yaxud buynuzlu tutacaqları gümüş, yaxud qızılla inkrustasiya edirdilər. Sümük kövrək olduğundan inkrustasiya ustadan böyük bacarıq tələb edirdi. Bu halda, adətən fil sümüyü ilə müqayisədə bərk və ağ olan suiti sümüyünə üstünlük verilirdi. Qızıl və gümüş çərtmə tiyələrə, yaxud qınların əşyalarına vurulurdu. Onunla tək ornament yox, yazılar da ("Quran" ayələri, usta, yaxud silah sahiblərinin adı, tarixlər və s.) yerinə yetirilirdi.

Qeyd etmək lazımdır ki, Qafqaz soyuq silahlarının aşırma qayışları yığma kəmərlərə uyğun olaraq şəəkə gümüş lövhələrlə, yaxud dəmirə çəkilmiş qızıl ornamentlə bəzədilirdi. Şəbəkə və mina ilə bəzəmə üslubu Qubaçıda XIX əsrdə yaranmış və soyuq silahların bəzədilməsində az istifadə olunmuşdur. Öz xüsusiyyətinə görə nəbati olan Qubaçı ornamentinin müxtəlif növləri var. Onlardan biri yalnız təcrübəli ustaların hazırlaya biləcəyi "tutta" (budaq) simmetrikdir. Onun əsasına hər iki tərəfə simmetrik olaraq gül, yarpaq buruğu ayrılan şaquli ox dururdu. Digəri – "marxaray" (kolluq) assimetrikdir. Tuttadan fərli olaraq burada simmetriya pozulmuşdur. Az buruq sayı olan bu spiraldan, yaxud əyri xətlərdən hər tərəfə çox vaxt birinciliyə tabe olmayan, əksinə, ona bərabər olan və sonralar bir-biri ilə kəsişən digərləri ayrılır.

Bu saplaqlar, yaxud ayırıcılar hərdən qarşılıqlı sürətdə sarmışan iri dalğalı xətlər yaradır. Spiral və marxaray ayırıcılar mərkəzdən tərəflərə ayrıla bilər. "Marxaray" və sıx-sıx buruq xətli "tutta" gülü, müxtəlif formalı yarpaqlarla bəzədilirdi. "Tutta" və "marxaray" qədim Qubaçı kompozisiyalarıdır. XVII əsrin sonu XVIII əsrin əvvəllərində Qafqazın Rusiya ilə ticarət və mədəniyyət sahələrini əhatə edən əlaqələri Qubaçıda ornamentin üçüncü – "moskov-nakış" ("Moskva təsviri") növünün yaranması ilə nəticələndi. Bu naxış gül və yarpaqlarla örtülmüş, simmetrik olmayan bitki, yaxud budaq görünüşü almışdır. Bir qədər sonra rus təsiri ilə Qubaçıda nadir hallarda rast gəlinən ornament – "sita" yaranmışdır. Burada çarpazlaşan xətlərin yaratdığı şəbəkənin bölmələri çiçəklərlə tamamlanmışdır. Qubaçı silah ustaları yalnız bəzəmə və quraşdırma işləri ilə məşğul idilər. Xəncər, qılınc və s. tiyələr qonşu Amuzgi aulunda hazırlanırdı. Amuzgi ustaları tiyələri poladdan (ən ucuz növ), ya da dəmirlə qatışıq poladdan düzəldirdilər. Bu iş aşağıdakı kimi görülürdü: pazşəkilli tiyəli dəmir oxu til boyu polad zolaqla əyir və onunla qaynaq edirdilər. Tiyənin quyruğunu düzəltmək üçün dəmirin yarısını ayaq tərəfdən dartırdılar. Sonra dəmirin bu hissəsini xəncər, yaxud qılıncın müvafiq görünüşünü əldə etmək üçün poladla döyürdülər. Daha sonra tiyəni taxtaya birləşdirir, üzərində vadilər (tiyənin çəkisini azaltmaq üçün) rəndələyirdilər.

Ardından tiyəni polad rəndələməyinə bənzər yonurdular və yonma dəzgahında cilalayırdılar. Nəhayət, tiyəni bərkidir, itiləyir və cilalayırdılar. Silah hazırdır.

Amuzgi dəmirçiləri – silah ustaları həmçinin naxışlı qaynaq da edə bilirdilər. Buna bizim ədəbiyyatda səhvən "qaynaq polad" deyirlər. Qafqazda xəncər ustası Bazlayın (XIX əsr) "kiçik qurd" və "qurd" tiyələri, Gürcüstanda Georq Purunsuzovun (XIX əsrin I yarısı), Q. Yelizarişvilinin (*şək. 41*), Dağıstanda Osman, Məhəmməd, İsmayıl, Həsən və digər ustaların silahları, həmçinin Şamaxı və Lahıc silahları məşhur idi (*şək. 42*).

Qubaçı ustaları əsrlər boyu silahları bəzəmək üçün çox texniki üsullar yaratmışlar. Burada sadə və dərin oyma, qara mina və zərləmə silahın görünüşünü zənginləşdirirdi. Qubaçıda yaradılmış təkrarolunmaz ornament öz xüsusiyyətlərinə görə sadə olsa da, bədii baxımdan mükəmməldir. "Tutta"ların əsasını düz, uzun gövdə təşkil edir. Ondan hər tərəfə qısa, düz, yaxud əyilən budaqlar gül və ləçəklərlə bəzədilmişdir. Bu budaqlar və güllər ayrı-ayrılıqda müəyyən üsluba malikdir. Qubaçı ornamentində onların sayı 20-dən çox deyildir. Lakin müxtəlif formaya malik olması, onun təkrarolunmazlığı haqqında təəssürat yaranır.

Digər əsas Qubaçı ornamentilərindən biri olan "marxaray"ın əsasını uzun saplaq, qıraqlarından isə qısa saplaqların yanında, "tutta"ya uyğun güllər təşkil edir. Bu ornamentlərlə bəzək səthini örtürdülər.

Dağıstanda yayılan "Moskov-nakış" və "sita" ornamentləri XVI-XVII əsrdə Qubaçıda rus-Qafqaz münasibətlərinin inkişafı və möhkəmlənməsi ilə inkişaf etmişdir. "Moskov-nakış" (yaxud "Moskva naxışı") kol, yaxud budağa oxşardır, üzərində isə gül və yarpaqlar rus ornamentinin dekorativ elementləri ilə uyğunlasdırılıb. "Sita" ornamenti paralel xətlərlə kiçik tor yaradır, onların arasında isə boşluq, yaxud nöqtələr və balaca güllər həkk olunur.

İlk nümunələrdə qızıldan ya tamamilə istifadə edilməmiş, ya da az-az istifadə edilmişdir. Bu dövrün zərb etmələri və çərtmələri qabarıq və həcmlidir (*şək. 43*).

XIX əsrin II yarısını aid Qubaçı incəsənətində bir əşyanın tərtibatında istifadə olunan qızıl və zərləmənin, texniki və dekorativ üslublarının bolluğu və çeşidliyi xarakterikdir (*şək. 44*). XIX əsrin soyuq silahının bədii tərtibat baxımından bir qədər "yüklənməsinə" baxmayaraq, məharətli və bacarıqlı ustaların silahları texniki və bədii xüsusiyyətləri ilə məşhurlaşmışdır. XIX əsr silahı əsasən qızılla naxışlanır, gümüş isə az istifadə olunurdu. Dərin oyma, bir qayda olaraq, qızıldandır. XIX əsr silahının dekorativ effekti qızılın fil sümüyü və qara mina ahəngindən yaranır.

Avar silah və zərgərlik sənəti öz orijinallığı ilə seçilir. Onun istehsal mərkəzləri Çox, Soq-ratl, Qamsutl, Ruquca, Qosatl və s. aullarıdır. Avar ustalarının hazırladıqları silahlar daha sadə bəzədilirdi. Naxışlı və kəsmə bəzəkli gümüş lövhələr ustanın əşyaya möhkəmlik vermək istədiyi yerdə yaradılırdı. Xəncərlərdə onlar qınların sonunda, qılınclarda isə sonda, yaxud ortada, yəni kəmər yerindədir. Avar silahında qınların sonadək bəzədilməsi nəzərə çarpmır.

Çerkesiyada böyük silah mərkəzləri yox idi. Hər kənddə 2-3 usta var idi. Çərkəz müdafiə qalxanı ümumi Qafqaz üslubundadır: dəbilqə, dəmir geyim, əlcək, qolçaq. Hündür konusşəkilli dəmir dəbilqə 2 hissədən ibarətdir. Bəzəyi çox deyildir: bir neçə naxışlanmış gümüş, yaxud oyma, qarasavatlı və ya zərlənmiş dəmir lövhələr və bir qədər ornament. Çərkəz dəbilqəsini vergül formalı buruq ornamentinə görə tanımaq olar. Bəzən usta onun üzərində öz adını və tarixi həkk edirdi. Az buruq sayı olan bu spiraldan, yaxud əyri xətlərdən hər tərəfə çox vaxt birinciliyə tabe olmayan, əksinə, ona bərabər olan və sonralar bir-biri ilə kəsişən digərləri ayrılır.

Yazıdan məlum olur ki, bunların bir neçə seriyası 1780-ci ildə Hacı Bəyin oğlu usta Əli tərəfindən hazırlanmışdır. Onun üzərində bəzədilmiş bafta ilə haşiyələnmiş və tikmə ilə naxışlanmış qırmızı tumacdan olan bayraq, vurmaq üçün halqa, altda isə dəmir geyimin toru var. O, üzün yarısını bağlayır, kənardan və arxadan dəmir geyimin çiyninə, qabaq tərəfdən isə qarmaqla bərkidilir. Hündür dəbilqələrdən əlavə uzun dəmir geyim də gəzdirirdilər.

Dəmir halqalardan hazırlanmış köynək döyüşçünün bədənini müdafiə edirdi. Bir halqa dörd qonşu halqanı əhatə edirdi. Halqanın 2 kəsiyi vardı: yaxada – baş üçün, ətəkdə – yerimək üçün. Yaxaya möhkəmlik və boyunun yaxşı müdafiəsi üçün xam göndən kəmərlər taxılmışdır. Düymələnən hissə qarasavatı gümüşlə bəzədilib. Piyada əsgərin dəmir geyimi uzun, atlıda isə qısadır. Orta ölçülü dəmir geyimdə təxminən 20-25 min halqa var. Dəmir

geyimlər halqalı və qınlılara ayrılırdılar: birincilər üçün yumru, qınlar üçün isə yastılanmış məftillər nəzərdə tutulur. Kabardin qınları çox məşhur idi. Onları İran şahı üçün alırdılar. XVI əsrdə türklər vergini insanlarla, atlarla, qınlarla alırdı (35. 182). 1660-cı ildə Rusiyanın Kabardin qın ustaları Həştərxanda işləmiş, sonra isə Moskvaya köçürülmüşdülər.

Qafqazda ən böyük silah istehsal mərkəzi Tiflis idi. Qeyd etmək kifayətdir ki, 1842-1866-cı illərdə Tiflisdə xəncər üşün 2840 sağanaq düzəldilmişdir (68.4). Nəzərə almaq lazımdır ki, rəsmi hesablamalara əsaslanan bu göstərici real istehsalın 1/3 hissəsini təşkil edirdi. Üstəlik, burada gümüş silahlar nəzərə alınmamışdır.

Tiflisdə hazırlanan xəncərləri bir neçə qrupa ayırmaq mümkündür. Xəncərlərin eyni tiyə və alətləri var. Alətlərin gümüş hissələri Tiflis sikkəxanasının möhürünə malik deyil, yəni 1804-1832-ci illərə aiddir, bu da bu qrupu XIX əsrin birinci rübünə aid edir. Tiyələr poladdan döyülmüş, üstü parıldadıb, ortası isə təzələnib. Orada Dəməşq buket naxışı nəzərə çarpır. Tiyələrin uzunluğu 31-39 sm, eni isə 3,2-5,3 sm-dir. Üstü bəzəkli tiyələr pazşəkillidir. Bununla belə bir neçə variantı qeyd etmək olar:

a) tiyənin hər iki tərəfindən mərkəzə yaxın balaca til var; orta iki dayaz vadidən ibarətdir, onlar dabandan 6-7 sm məsafədə gödək navalçaya keçir. Navalçaların ortası dəlikli fonlu qabarıq palmetta ilə bəzədilib. Onun qızıl çərtməsi palmettanın iki ləçək və dabanını örtür. Ornament budağın üstündə güllər, ləçəklər, buruqlarla bəzədilmişdir. Burada qızıl suyuna salınmış fonda oturaq halda şir fiqurunun oyma təsviri var. Palmettanın üzərində yarpağa bənzər qızıl lövhəcikdə möhür vurulub. Möhürdə ərəbcə "imtihan", yəni "istifadə olunub" yazılmışdır;

b) mərkəzə yaxın hər iki tərəfdə dabandan 6-7 sm məsafədə 2 dayaz ensiz vadi qısa navalça ilə haşiyələnir. Dabanın orta hissəsi də navalçadandır. Onlar vadiyə keçən zaman palmetta yaradırlar. Palmettadan kənarlaşan 2 ləçək seçmə fonlu seyrək novcuqla işlənib. Bu üslub birinciyə uyğundur. Lakin burada şir və qız təsviri yoxdur, o cümlədən damğa da olmur. Orta hissədə onlar naxışsız hissə ilə birləşir;

c) mərkəz digərlərindən enli dayaz navalça ilə ayrılıb. Dabandan da 6 sm məsafədə qabarıqdır, ortasında balaca til var, sonu isə beşləçəkli palmettadan düzəldilmiş tağla bitir; sonra üstü enir və mərkəzdə, qıraqlarda dar qabarıq xətlər saxlayır, bununla üstü çökük iki vadi yaranır.

Bu qrupun bütün tiyələri üçün deşilmiş bəzəklər səciyyəvidir: tağın şəkli, dabanın ortası, tiyənin orta hissəsinin aralıqla, yaxud vadilərlə düzəldilməsi.

Xəncərlərin tutacağı ümumi Qafqaz formasına uyğundur, lakin başlığı balaca, yumru formalıdır.

Tutacaqlar qara buynuz, nadir hallarda isə sümükdən düzəldilir. Tutacaqlar sağ tərəfdə yerləşən yarımkürə formalı papaqlarla 2 dəmir və mis pərçimlə bərkidilib. Papaqların altına kvadrat formalı gümüş aralıq qoyulub. Papaq və aralıqlar gümüşdəndir, dörd ləçəkli xonçalarla bəzədilmişdir. Bəzədilmiş xəncərlərin tutacağı gümüşdəndir; qara mina düz və burulmuş məftillərdən ibarətdir, başlıq və özül hissə başlıq və yarpaq oyma ilə buxovlanıb, nəbati ornamentlə bəzədilmişdir.

Qınlar tiyə formasına uyğundur. Onlar ağacdan düzəldilir, sağ tərəfdən qara, yaxud yaşıl şaqren dərisi ilə, soldan qırmızı tumacla üzlənib. Sol tərəfdə boşluq və tiyənin qoyulması üçün dəri cib vardır. Ağız və qurtaracaqlar enli, gümüşdəndir, tağa uyğun uzadılmış 3 ləçəkli palmetta, yaxud alov formasındadır və tağa oxşar yumru başlıqla tamamlanıb. Ucluq balaca qotazla bitir.

Ağızın ortasında nazik dəmir daraqlı yuva vardır. Sağda, bəzəkli xən-cərlərdə hər iki tərəfdən daraq üzəri lövhəcik qoyulub. Ağızın yuxarı kəsiyi, daraq həm yuxarıdan, həm aşağıdan və ucluğun sonu iri saxta zərlə və məftilli hörükdən ibarət gümüş yaymalarla haşiyələnib. Ən bəzəkli qınlarda ağızdan əlavə, ucluqda da tiyələrin sağ tərəfindən mərkəzə doğru bənd var. Bütün gümüş üstlüklər sağdan qara mina, naxış, bəziləri isə qızılla bəzədilir.

Tutacaq və qınlarda ornament simmetrik, stilizə edilmiş, nəbatidir. O, 3-4 ləçəkli xonçadan, ikiləçəkli sarmaşan çiçəkli gövdədən, üçləçəkli başlıq və qönçədən ibarətdir. Qara minaların içində ağ naxışlar vardır. Ağızın üstü çərkəz ornamentində olduğu kimi hörük, qısa gövdə, başında nöqtə olan enli ləçəklərdən ibarətdir. Ağızın altı xonçalardan, yaxud üçləçəkli palmettalardan ikiləçəkli saplardan ibarət mürəkkəb təsvirli simmetrik timpanla bəzədilmişdir. Ümumiyyətlə, timpanın quruluşu İran və Türkiyə variantlarına oxşayır. Ucluqda bəzən

üçləçəkli qönçə ilə əvəzlənən dörd ləçəkli böyüyən xonçalar yerləşir. Onların hər biri ikiləçəklilərlə əhatə olunmuş, romba oxşar kartuşa daxil olub. Bu ornamentin əsasıdır. Buradan buruq və ləçəklər ayrılır. Ağızın və ucluğun ornamenti içəridən ağ buruqlu qara mina çərçivəsində fiqurlarla bəzədilib. Təsvirin önü balaca buruqlardan ibarətdir. Daraqdakı lövhəciklər və əlavə lövhəciklər xonçadan qurulmuş zəncirə, yaxud həndəsi naxışla bəzədilmişdir. Tutacağın başlığın lövhəciyində balaca budaq, başlıq və zolaqlzrdan ibarət simmetrik möhürə uyğun ornament var; yan tərəflərdəki lövhəcikdə xonçalı naxışlar, başlıqlar, ikiləçəkli bəzəklər var; əsası isə gövdə, xonça və ikiləçəklilələrdən ibarətdir. Hissələr, fon və naxışların hazırlanması qınlarda olduğu kimidir.

Beləliklə, ornament simmetrikdir. Onun quruluşunda müəyyən qanunauyğunluqlar gözlənilir: timpan və naxışlar ağızda, sütunlar ucluqda, spesifik naxışlar tutacaqda yerləşdirilmişdir. Bəzi detallara görə erkən Qubaçı ornamentlərini xatırladır. Lakin bu xəncərlər XIX əsrin I yarısında Qubaçı ustalarının əl işi ola bilməzdi. Çünki qubaçılar Tiflisə yalnız XIX əsrin 70-ci illərində gəlmişdilər. Ehtimal ki, burada Qubaçı əşyalarından rəsmlərin iqtibas edilməsi yer alıb. Bununla belə, ornamentdə çərkəz elementləri – başlıqda nöqtə və vergülvari buruqlar da nəzərə çarpır. Başqa sözlə desək, texniki və bədii üsulların etnos-ərazi ənənəsinə baxsaq, tədqiq olunan dövrdə qarşılıqlı təsir meylləri üzə çıxır.

Beləliklə, XIX əsrdə Tiflisdə olan istehsalın səciyyəvi xüsusiyyəti müxtəlif üslubların müvafiqliyi, təcrid olunmuş mərkəzlər üçün xas olan əşyanın forma və ornamenti arasında mütləq əlaqənin olmamasıdır.

Qafqazda qılınclar tarixi baxımından formalaşmış milli obrazlar əsasında bəzədildiyindən, həm də hazırlandığından, bir çox hallarda ornamentə görə onların istehsal yerini müəyyənləşdirmək mümkündür. Xevsur qılıncları əksər hallarda yüngül Qafqaz silahlarına aid edilir. Tutacaq və tiyələrin örtüyü, onların üzərindəki ornament Xevsur qəmələrində olduğu kimidir.

Ermənistanda yüngül Qafqaz qılıncları, tutacaq və qınlarda xüsusi həndəsi ornamenti olan İran şəmşirləri yayılmışdır. Mərkəzdə romb şəklində xonça spiral xətlərdən qurulmuş və heyvan (pələng, yaxud şir) şəklindədir. Ornamentlərdə mis, gümüş və qızıldan istifadə edilirdi.

Gürcü qılınclarında mis, yaxud yastı gümüş tətbiq olunurdu. Üslublaşdırılmış nəbati ornament adətən üzümlərdən ibarətdir. XVIII-XIX əsrdə gürcü döyüş silahından qılınc və xəncərlərin üzərinə adətən dəri, yaxud tumac, bəzən isə məxmər çəkirdilər. XVII-XVIII əsrə aid bəzi gürcü silahları hərbilikdən daha çox təntənəli xarakterli idi. Onların yarı yumru örtülü başlıqlı tutacağı arxaya çox əyildiyindən çox narahat idi. Qınlara tumacdan, yaxud məxmərlə dartılmış ətək bağlanırdı. Ləvazimat adətən kəsilmiş və zərb olunmuş gümüşdən hazırlanırdı, bəzən isə qızıl suyuna salınırdı.

Qafqaz dəbilqələri əsasən üç tipdə olurdu: hündür, alçaq və həmçinin çiyinliyindən “misürka” (ərəbcədən – Misir) dəbilqələr. Hündür dəbilqə (çərkəz dilində “taş”, yaxud “tanj”) hər iki tərəfdən pərçimlənmiş konusşəkilli formaya malik idi. Onun uc hissəsinə hərəkətli halqa bərkidilir və ora bir qayda olaraq qırmızı rəngdə dekorativ tumac bafta bağlanılırdı. Dəbilqənin aşağı hissəsi qulağa qədər gəlib çatırdı, buna görə də üzün aşağı hissəsindən başqa başın hər yeri çənənin altından bağlanan halqalı zirehlə örtülürdü. Arxadan çiyinlik, adından da göründüyü kimi, çiyinə düşürdü. Yarımkürə formalı alçaq (çərkəzcə “pdpao”) və “misürka” dəbilqələr birinci halda başın üst hissəsini, ikinci halda isə təpəni örtürdü. Onlarda da həmçinin halqalı zireh çiyinlik və dekorativ baftalar asmaq üçün halqalar olurdu.

Bədənin qorunması məsələsinə gəlincə isə, müasir dövrümüzədək yalnız halqalı Qafqaz yaraqları çatmışdır. Lakin XVII əsrdə Qafqazda olmuş səyyahların xatirələrinə görə, dağlılar lövhəşəkilli yaraqlardan da istifadə ediblər. Güman etmək olar ki, bu, fars mənşəli bəhtər, yüşmən və ya zireh döşlük olmuşdur. Amma buna bənzər Qafqaz qoruyucu yaraqlarından heç biri dövrümüzə qədər gəlib çatmamışdır. Mühafizə olunmuş bu nümunələrə əsasən demək olar ki, Qafqaz zirehləri klassik sxemdə bir halqanın dörd əlavə halqaya keçirilməsi ilə hörülürdü. Zirehli geyimlərdən əsas iki tipdə istifadə olunurdu: halqalı zirehlər və qınlar. Geyimin ətəyi dizə, qolları dirsəyə qədər uzanırdı və dik yaxalığı var idi. Ətəyinə, atın üstündə rahat əyləşmək, gəzmək üçün ön və arxa hissədən kəsik qoyulurdu. Həm də atlının zirehinin ətəyi, piyada döyüşçünün ətəyindən daha uzun olurdu. Yaxalığa yetərincə möhkəmlik vermək üçün ona xam dəridən qayış tikirdilər. Qafqaz zirehdəki halqaların ümumi sayı 20-25 min olurdu.

Qafqazda odlu silahlar XVI-XVII əsrlərdə yayılmışdı. Bu dövrə aid olanlar fitilli silahlardır. XVIII əsr silahları qığılcımlı çaxmaqdaşlı sürgülü olduğundan "odlu" adlanırdı. XVIII əsrin II yarısı – XIX əsrdə Qafqaz silah tiplərinin bir çox ümumi cəhətlərə malik idi (*şək. 45*). Onun üçün səciyyəvi xüsusiyyətlər bunlardır: uzun, yumru və ya yonulmuş, xəzinəsi və ağzı qızıl, nadir hallarda gümüşlə bəzədilən yivli lülə. Sürgü Aralıq dənizinin çaxmaqdaşlı sürgüsü növündəndir. Sürgülər əsasən nəbati ornamentli qızıl naxışlarla bəzədilirdi. Gümüş bəndlər və patron daraqlar oyma və qara mina, nəbati, bəzən də həndəsi elementli ornamentlərlə bəzədilirdi (*şək. 46*).

Qafqaz silah sənəti ilə Şərq ölkələrinin (İran, Türkiyə, ərəb Şərqi) silahlarının müqayisəsi bəzi nəticələrdən çıxış etməyə imkan verir. Müxtəlif Qafqaz xalqlarının kustar ənənələrini özündə əks etdirən müxtəlif texnika və ornamentlərlə zəngin dekora malik Qafqaz silahı Şərq xalqlarının maddi və bədii-mədəni tarixində unikal hadisədir. Şərq silahlarının ən gözəl nümunələrindən birinə çevrilmiş Qafqaz silahı özünəməxsus "sima"sı, fərqli dekorasiya motivləri və texniki üsulları ilə şöhrət qazanmışdır.

# II FƏSİL

## AZƏRBAYCAN SİLAHLARININ BƏDİİ ƏNƏNƏLƏRİ

### *SOYUQ SİLAH*

Strateji Karvan yollarının kəsişməsində yerləşən Azərbaycan erkən orta əsrlərdən hərbi əməliyyatlar meydanına çevrilmişdir. Bu səbəbdən də burada Yaxın, Orta və Uzaq Şərq silah ustalarının nailiyyətləri ilə zənginləşən yerli silah ənənələri meydana gəlmişdir.

Azərbaycan orta əsr silahları və hərb sənətinə dair məlumatları orta əsr mənbələrindən və hərbi salnamələrdən izləyirik (3, 14, 22). Silah, onun növləri və tətbiqi qaydaları haqda vizual informasiyanı orta əsr miniatür rəsmlərindən, bir qədər inkişaf etmiş orta əsrlərdə isə divar üzərində təsvirlərdən (Şəki xan sarayı və İrəvan Sərdar sarayı) almaq olar.

Şübhəsiz ki, silahlar haqqında dolğun məlumatı müxtəlif ölkələrin muzey kolleksiyalarında qorunub saxlanılan silah nümunələrinin özlərindən əldə etmək olar. Azərbaycanın ən zəngin soyuq silah kolleksiyası Milli Azərbaycan Tarix Muzeyində, Azərbaycan Milli İncəsənət muzeyində, eləcə də Azərbaycanın bölgələrindəki diyarşünaslıq muzeylərində qorunur.

Azərbaycanda hərb sənəti və silah istehsalı ta qədimdən yüksək inkişaf yolu keçmişdir. Orta əsrlərdə əsas silah və yaraq mərkəzi sayılan Təbriz, Şamaxı, Bakı, Naxçıvan, Ərdəbil, Marağa, Xoy, Gəncə emalatxanalarında həm sifariş, satış üçün silah istehsal edilir, həm də digər ölkələrə, xüsusən də Rusiyaya silah ixrac olunurdu (95. 68).

Soyuq silahlar kəsici, deşici və zərbəli olurlar. Bu qruplara isə, öz növbə-sində “tutacaqlı”, sadə dillə desək, bir əllə tutulan, istifadə qaydasına görə “qurşaqlıq” (“aşırma qayış”) və iki əllə tutulan “saplı” silahlar aiddir.

Birinci qrupa aid silah növlərindən Azərbaycanda geniş yayılanı ağır dəyənək – toppuz, gürz formasında olan, tutacaqlı ağır metal başlıqlı əmuddur. Sonralar, odlu silahların tətbiqi ilə əmud öz ilkin rolunu itirərək, hakimiyyət rəmzinə çevrilmiş, fərqli nişanlara və bəzəklər qazanmış, bayram tədbirlərində təntənə rəmzi kimi istifadə edilmişdir.

Rəşidəddinin məlumata görə, İraq sultanı Toğrulun (1178-1194) öküz başı formalı dəstəyi olan əmudu var imiş (88. 101). Dəyənəyin digər tipi qısa zəncirlə tutacağa bərkidilən mil uclu başlığa malik salaq idi (gürzə bənzər).

Belə dəyənəyin uzunluğu 0,5-0,6 m-dir. Azərbaycanda həmçinin altı metal başlığı olan dəyənək – şeşpər də geniş yayılmışdır.

Ta qədimlərdən dəyənək Azərbaycanda yalnız silah deyil, həm də silah tərtibatçılarının bədii yaradıcılıq obyekti olmuşdur.

Eneolitdə meydana gələn bu silah növü əsl inkişaf dövrünü orta əsrlərdə yaşayır. Bu dövrdə Azərbaycanda dəyənəyin müxtəlif yeni növləri – əmud, toppuz, gürz yaranır.

Artıq ilkin orta əsrlərdə onun daha bir növü – kvadrat başlıqlı, uzunluğu 80-105 sm olan, iki əllə tutulan mustafiyyə meydana gəlir. Bu unikal nümunə Milli Azərbaycan Tarixi Muzeyində (MİF, inv. № 948/80) mühafizə edilir. Dəyənəyin həndəsi fiqurlardan, nəbati ornamentlərdən və quş təsvirlərindən ibarət dekoru polad üzərində həkk edilmişdir.

XIII-XIV əsrlərdə Azərbaycanda dəyənəyin bir neçə növü istifadə olunmuşdur. Onlardan biri türkcə “çumak” adlanır, Azərbaycanda isə çomaq kimi tanınır. Çomaqda oyma ilə məhdudlaşan bəzək əsasən tutacaqda olur.

Orta əsrlərdə geniş yayılmış dəyənək növü toppuz olmuşdur. Son dərəcə qısaldılmış tutacağa (60 sm-ə qədər) və ağırlaşdırılmış başlığa malik olsa da, 17 kiloqramlıq bu silah yenə də qorxulu silah olaraq qalırdı.

Zoomorf və antropomorf başlıqlar Azərbaycan toppuzlarına xas olan cəhətlərdir. Dəyənəklərin zoomorf başlıqları totemizmin rəmzlərindən hesab edilir və XV əsrə aiddir.

Azərbaycanda daha çox yayılmış dəyənək növlərindən biri də sahibinin güc-qüvvət rəmzi olan öküz başlı dəyənəkdir. Tökmə üsulu ilə düzəldilən öküz başlar, bir qayda olaraq stilizə edilmiş və yığcamdır. Öküz başlı dəyənəklər, əsasən Azərbaycanın şimal vilayətlərində, xüsusən Şirvanda geniş yayılmışdır.

Məşhur silah tarixçisi M.Qorelikin fikrincə, "Şərq dəyənəklərinin antropomorf başlıqları Firdovsinin "Şahnamə" sində (52. 42) təsvir olunan akvandiv təsvirindən qaynaqlanır. Poladdan hazırlanan başlıqlar, bir qayda olaraq, içiboş olsa da, bu onların zərbələrinin gücünü zəiflətmirdi.

Azərbaycan ustalarının hazırladıqları çoxlu sayda öküz və antropomorf başlıqlar Milli Azərbaycan Tarix Muzeyinin fondunda saxlanılır (ill. 3.2).

Belə dəyənəklərin başlıqlarında olan iki tərəfi açıq deşik (burun deşiyi, qulaqlar, gözlər) həm bədii, həm də funksional əhəmiyyətə malikdir. Dəyənəklə zərbə endirməyə hazırlaşan döyüşçü var qüvvəsi ilə onu başı üzərində fırladırdı. Bu zaman deşiklərdən keçən külək güclü vıyıltı yaradır və düşmənə psixoloji təsir göstərirdi (*şək. 47*).

XVII-XVIII əsr dəyənəklərinin ölçü və çəkisinin kəskin şəkildə azaldılması onların hərbi əhəmiyyətindən deyil, daha çox yeni rəmzi mənasından xəbər verir. Dəyənəklər üzərindəki dekorativ bəzəklərin zənginliyi silah sahibinin incə zövqünü və nəqqaşın ustalığını nümayiş etdirir (*şək. 48*).

Milli Azərbaycan Tarixi Muzeyinin fondunda qorunan nümunələr arasında yalnız zərgərlik məmulatı hesab edilən, bəzəyində zərgərlik texnikasından – girintili-çıxıntılı minalardan istifadə olunan dəyənəklər də var (inv. № 55). Ən gözəl dəyənək üzərində oyma üsulu ilə həkk olunmuş öküz başı, kalliqrafik medalyon, insan, quş, nəbati ornament təsvirləri olan dəyənək hesab olunur (inv. № 82).

XVIII əsrin sonu – XIX əsrə aid dəyənəklərin təhlili bu dövrdə Azərbaycan dəyənəklərinin döyüş silahlarından evin interyerini bəzəyən dekorativ əşyaya çevrildiyini göstərir.

Dəyənəklə yanaşı, Azərbaycan bədii təntənəli silahlarına döyüş baltaları – oraqşəkilli təbərzinlər (nacaq) də aiddir. XVII-XVIII əsrlərdə küp tərəfdən birləşdirilmiş və dəstəyə oturdulmuş iki oraqlı nacaqlar da geniş yayılmışdır. Belə nacaqların səthi xonça və kətəbə üzərində əks olunmuş kalliqrafik taxmalı ornamental oymalarla bəzədilmişdir.

Tanınmış Azərbaycan tarixçisi M.Nemətova nacağın bu növünü islamaqədərki dövrdə mövcud olmuş Ay kultu ilə əlaqələndirmişdir (*şək. 49*).

Orta əsr Azərbaycan təbərzinləri Səfəvilər dövründən etibarən rəmziləşmiş, bayram libaslarının və interyerin bir hissəsi olmuşdur. Ehtimal ki, bu silah növünün son dərəcə zəngin bəzəyinin səbəbi də məhz budur.

Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan (MİF, inv. № 2751) I Şah İsmayıla aid təbərzin bu fikirləri təsdiq edir. Onun uzunluğu cəmi 50 sm, oraqşəkilli tiyənin diametri isə 30 sm-dir. Poladdan hazırlanmış təbərzinin üzərində nəfis xətlə yazılmış kitabə vardır: "Bu füsunkar əşya parlayan ayın əlindədir. O, ölkə hökmdarının xidmətindədir. Sultan-şahı işıqlandır. Şah İsmayıl" (13. 293).

Digər bir təbərzinin üzərindəki daha bir zəngin dekor XVIII əsrə aiddir (MİF, inv. № 133).

Bu, uzunluğu 23 sm, eni 15 sm olan taxta dəstəkli bir tərəfli nacaqdır. Polad nacağın hər iki üzündə nəsh xətti ilə yazılmış medalyon yerləşdirilmişdir: "Allahın hifzi ilə zəfər qabaqdadır. Əlidən cəsur döyüşçü, Zülfüqardan yaxşı qılınc yoxdur" (13. 294).

Azərbaycanda şiş uclu silah qrupuna aid olan nizə istifadə edilmişdir. Nizənin iki növü fərqləndirilir: uzun saplı – zubin, mizraq və qısa saplı – harba, tirad. Nizə, adətən müxtəlif dəri və mahud parçalarla, aşağı ucu isə at tükü ilə bəzədilirdi. Süjetli oyma və ornament motivləri ilə bəzədilmiş üçdişli ən gözəl zubin nümunəsi Milli Azərbaycan Tarixi Muzeyində mühafizə edilir (*şək. 50*).

Şiş uclu soyuq silah qrupuna eninə balta və ya nacaq bərkidilmiş, piyadanın əsas silahı sayılan geniş yayılmış uzun nizəni – təbərzini, əlbəttə ki, qılıncı, nisamı, xəncəri şamil etmək olar ki, bunlar da qında saxlanılan ikiağızlı düz ya əyri tiyəli əlbəyaxa döyüşün batırıcı silahı idilər (89. 79).

Üçüncü qrupa aid silahlara qızıl və ya bahalı sümüklə tərtib olunmuş tutacağın irəli çıxmış hissəsində ülgüclü əyilmiş tiyəsi olan, XV əsrdə geniş yayılmış düdəmlərin (düz qılınc) yerinə gələn qılınclardır.

Qılıncın tiyəsi, ərəb tiyəsi kimi bir qədər əyilmişdir; bu da onu, demək olar ki, yumru oraq formasında olan türk qılıncından fərqləndirir. Qılınclarda, əsasən dəstək olmurdu; qın hər zaman taxtadan olur, dəri, balıq pulcuğu, ipək parça və ya məxmərlə tarıma çəkilir, yuxarı və aşağı sonluqlar bəzədilir, orta isə metalla örtülərdi (54. 139).

Xəncər tunc dövründən etibarən Azərbaycanda daha çox yayılmış soyuq silah növüdür (48. 31-54). Kültəpə (Naxçıvan), Sarıtəpə (Qazax), Uzuntəpə (Muğan), Xanlar və bir sıra başqa tunc dövrünə aid ərazilərdə və qəbirlərdə aşkar edilmiş müxtəlif xəncər növləri bu silah növünün böyük bədii-konstruktiv rəngarəngliyindən xəbər verir.

Xəncər istehsalı ənənəsi dəmir dövründə (e.ə. I minillikdə) və qədimdə (Manna, Midiya, Atropatena və Albaniya) də davam etmiş (82.55), lakin əsl çiçəklənmə dövrünü orta əsrlərdə yaşamışdır.

Orta əsr Azərbaycan xəncərləri tiyəsində və alətində olan ornamentlərinə görə ümumən Qafqaz, İran və türk xəncərlərindən fərqlənirdi. Bu ornamentdə nəbati və bəzi həndəsi elementlər, eləcə də islami motivlər: islimi, ləçək, tağ, bəzi yerlərdən stilizə olunmuş yarpaqları olan burulan budaqlar arkidən istifadə olunmuşdur. Bundan əlavə, Azərbaycan tətbiqi incəsənətində geniş yayılmış şəbəkə də öz əksini tapmışdır.

Üslublaşdırılmış nəbati ornament oyma, qaralama (tiyə üzərində) ilə, tutacaq isə oyma, qaxma, qızıl və gümüş suyuna salınmaqla yaranır.

Tutacaq və qının bahalı daşlardan və mina dekorundan (arakəsmə və girintili-çıxıntılı texnika) hazırlanan haşiyələri daha zəngindir.

Milli və xarici ölkə muzeylərində ilkin orta əsrlərə aid xəncərlərə rast gəlinməmişdir. Kitab miniatürünün təsviri materialının və dekorativ-tətbiqi incəsənət əşyalarının süjet təsvirlərinin təhlili Azərbaycan xəncərinin konstruktiv və bədii xüsusiyyətini XV əsrdən başlayaraq izləməyə imkan yaradır. Buna bənzər xəncərin şəklini şahzadə xanımın şəxsi qvardiyasını təsvir edən XV əsr Təbriz miniatüründə (Dits albomundan) görürük. Qaradərili qvardiyaçılardan birinin belində qınında olan xəncər təsvir olunmuşdur. Xəncərin və qının dəstəyi, ehtimal ki, qızıl haşiyəli qara nefrit örtükdən ibarətdir. Xəncərin tiyədən ayrılan, spiralşəkilli buruqları olan qardası son dərəcə orijinaldır. Tutacaqda qiymətli daşlardan olan əlavələr tamamilə aydın görünür.

Tiyə ucu bir qədər əyilmiş düz formaya malikdir. Ümumən, tiyənin düz forması (kama) Azərbaycanda tiyənin ardıcıl inkişaf yolunun göstəricisidir. Azərbaycan xəncərinin tutacaq formasında nəzərəçarpan dəyişiklik XVI əsrə aiddir. Tutacaq məhdudlaşdırıcı dekorativ çarpaz formasından əli tutacaqdan sürüşməkdən qoruyan ümumi Qafqaz üslubuna keçid aldı.

Buna bənzər dəyişikliklərə uğrayan və XVI əsrə aid Azərbaycan xəncərləri Bern şəhərinin (İsveçrə) Milli Tarix Muzeyində saxlanılır. Tiyənin üzərində oyulmuş yazı var: “Məhəmmədin işi. Qasım xana məxsusdur” (94. 115) (*şək. 51*). Son dərəcə sadə tutacaq belə gözəl tiyəni yuxarıda qeyd olunan nəstəliq yazı ilə əhatə olunmuş bərə ilə bitirir. Tutacaq qara buynuzdan hazırlanıb, tiyənin ucu sonuncu, üçüncü hissədən başlayaraq bir qədər əyilmişdir.

XVIII əsrdən etibarən Azərbaycanda İran tipli tiyəyə (bebut) malik əyri xəncərlər geniş vüsət alır. Təxminən XIX əsrin ortalarından Azərbaycan xəncərlərinin əksəriyyəti ümumi Qafqaz üslubuna uyğun düz tiyə formasını alır. Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasında belə klassik xəncər nümunəsinə rast gəlirik (*şək. 52*). Bu dövrdən başlayaraq Azərbaycan xəncəri özünün yekun konstruktiv formasını qazanır, sonradan baş verən dəyişikliklər əsasən bəzək xarakteri daşıyır. Şimal və şimal-şərq regionları bədii tərtibat zamanı üstünlüyü qaraltmaya, zərə və eşməyə verir. Ölkənin şərq və cənub regionlarında qızıl və gümüş yarıqlı oymalar üstünlük təşkil edir.

Bütövlükdə, orta əsr Azərbaycan xəncərinin konstruksiya və bəzək inkişafı haqqında bəhs edərkən deməliyik ki, Azərbaycan xəncəri orta əsrlərin sonlarında Qafqaz tipli xəncərlərin ayrılmaz hissəsinə çevrilmişdir.

Azərbaycanda geniş vüsət almış soyuq silah növlərindən biri də Şərqdə əl-Kindinin “Əs-Suyuf və Əcnəsuha”da (“Qılınc və onun növləri”) adlı elmi əsərində adı çəkilən deşici qılınc düdəmədir (96. 5).

Ağır düdəmə Azərbaycan xalq dastanı “Dədə Qorqud”da (VIII əsr), Nizaminin “Xəmsə”sində, yüngül, azacıq əyri gordaların nümunələrinə isə XIII əsrə aid Azərbaycan miniatürü “Vərqa və Gülşah” da rast gəlmək olar.

Azərbaycanda hərbi əməliyyatların tarixini tədqiq edən A.Yunusov hesab edir ki, “XIII əsrin ortalarına kimi bütün Yaxın və Orta Şərqdə uzun, ağır düdəmə üstünlük təşkil etmiş, gorda isə (düdəmədən deşici qılınca keçid forması) ikinci dərəcəli rol oynamışdır. XIII əsrin II yarısından XV əsrin sonlarına qədər düdəmənin rolu artsa da, o, öz əhəmiyyətini itirmir. Yalnız XVI əsrdə deşici qılınc düdəməni sıxışdırıb çıxarır” (96. 10). Düdəməni ifadə etmək üçün səmsəm (ərəb), tiq (farsca) və biçka (türkcə) sözlərindən, XV əsrə qədər gordanı adlandırmaq üçün səif (ərəb), şəmşir (farsca), kılıçdan (türkcə) istifadə etmiş, sonradan isə bu sözləri düdəmə ilə əlaqələndirilməyə başlamışdır.

Orta əsr Azərbaycan döyüşçüləri Təbriz, Gəncə, Ərdəbil, Beyləqan, Şamaxı, Bakı və ölkənin bir sıra başqa şəhərlərində hazırlanan yüksək keyfiyyətli düdəmə, qılınc və gordaya malik idilər. Yuxarıda qeyd olunanlar onu göstərir ki, Azərbaycanda ilkin orta əsrlərdən həm ikitilli düdəmələr, həm də bir tərəfli qılınclar geniş yayılmışdır. Orta əsrlərdə təntənəli və rəmzi xarakter daşıyan, əsasən imam Əlinin adı ilə bağlı olan iki tiyəli “Zülfüqar” qılıncı meydana gəlir (*şək. 53*).

Yalnız hərbi üstünlüyə yox, həm də yüksək bədii göstəricilərə malik təntənəli düdəmə və qılıncların çiçəklənmə dövrü XVIII-XIX əsrlərə təsadüf edir.

Milli Azərbaycan Tarixi Muzeyində bu silahların xeyli sayda nümunələri mövcuddur. XVIII əsrə aid əsl Azərbaycan qılıncı MİF. inv. № 392 inventar nömrəsi ilə saxlanılandır. Bir balaca əyilmiş tiyədə nəbati ornamentli, aypara şəkilli təsvirə malik qızıl çərtmə var (*şək. 54*). Tutacağa yaxın yerləşən oymalı iki medalyon üzərindəki yazını M.Nemətova “Nəsrəddinə məxsusdur” (I medalyon), “Usta Misranın işi və tarix: 1788-ci il” (II medalyon) (1.294) kimi oxumuşdur. Medalyonların arasında yerləşən hər dördüncü bölməsində ərəb rəqəmləri olan kvadrat tor formalı rəmzi işarəyə malikdir. Rəmzi işarənin məzmunu oxunmur.

XVIII əsr Azərbaycan ustasının əl işi olan, unikal qılınclardan biri də 316-cı nömrə ilə mühafizə olunur. Qılınc palmetta formasında bitən, ucluğa doğru pərçimləşərək qılıncın sürüşməsinin qarşısını alan orijinal çarpaza malikdir. Qeyd etmək lazımdır ki, bu çarpaz tipi analoji ərəb qılıncının çarpaz tipidir. Tiyənin üzərindəki medalyonda xəttatların həkk etdiyi oyma “Ey çətinliklərə sinə gələn” yazısı vardır. Eləcə də tağlı kətəbədə yazılıb: “Əgər Allah istəsə – ondan böyüyü və güclüsü yoxdur. Bizim üçün Allah hifz edən və qoruyandır”.

Yazılardan başqa, üzərində məğlub edilmiş pələngin təsviri həkk olunmuş daha bir oyma medalyon var. Stilizə edilmiş pələng təsviri və medalyonun ölçüsü bunun ustanın möhürü olduğunu göstərir. Tiyə orağa yaxın, biri dar, digəri enli iki bərəyə malikdir (*şək. 55*). Milli Azərbaycan Tarix Muzeyinin kolleksiyasında olan XIX əsrin sonuna aid Avropa nümunəli qardallı orijinal şəmşir son dərəcə əyilmiş deşici qılıncdır (Avropa qılıncına bənzər). Ağ sümükdən hazırlanan tutacaq vəhşi heyvan başlı tunc pəncə ilə bitir. 90 dərəcə əyilmiş tutacağın pəncəsi türk yatağanının analoji formasıdır. Çarpazın mərkəzində polad üzərində qızıl naxışlar, içində qızılla yazılmış “Quran” ayələri olan medalyon vardır.

Zəngin bəzəyi, çoxsaylı yazıları olan ikitiyəli “Zülfüqar” nadir nümunədir. Yazılardan məlum olur ki, qılınc Azərbaycan ustası Məhəmməd Bala Sirac tərəfindən 1911-1912-ci illərdə hazırlanmışdır. Tutacağın digər tərəfində isə “Qılıncın sahibi Abd-əs-Səlim ibn Amir Əli” yazılmışdır. Bundan başqa dini məzmunlu yazı da mövcuddur: “Möcüzəni səslə – Əli. Peyğəmbər Məhəmməddə və onun varisi Əlidə bütün bəlaların və iztirabların nicatı var” (*şək. 53*).

Tutacaqda birləşən hər iki tiyənin üst qatı kətəbə ilə bitən yazılarla zəngindir. Tiyənin birində 8, digərində 9 kətəbə var.

Kətəbədəki “düşməni məhv etmək”, “nifrət oyatmaq”, “güclü olmaq”, “düşməni hissələrə parçalamaq”, “düşməni yer üzündən silmək” və s. bu kimi aforizm və epitetlər daha çox rəmzi xarakter daşıyır. Qılıncın kətəbəsindəki bəzi kəlamların təkrarlanması xəttatın bunu bədii kompozisiya, dekorativ elementlər formasında kətəbəyə yerləşdirməklə silahı rəmzi incəsənət əsərinə çevirmək niyyətindən xəbər verir (58. 301).

Deyilənlərə görə, imam Əli məhz belə iki tiyəli "İslamın cəza qılıncı"nın sahibi idi. Zülfüqar adı (tərcümədə "sapa, saça çevirən" deməkdir) düşməni kəsərkən bədənini dar zolaqlara (saplara) ayıran ikili tiyə ilə bağlıdır. Demək olar ki, paralel olan tiyələr düşməni iki hissəyə bölür, onda tiyələrin paralellərinə uyğun zolaq ayırırdı.

Tiyələrin birinin orta hissəsindəki kətəbədə insan təsviri vardır. Yazıların miqdarı, xarakteri və qılıncın ümumi dekorativ quruluşu onun döyüş deyil, rəmzi silah olduğundan xəbər verir. Lakin bədii işləmələrin səviyyəsi, kalliqrafiya və ustanın incə zövqü bu rəmzi silahı silah sənətinin incisinə çevirmişdir.

Azərbaycan ustaları öz məhsullarını bəzəmək üçün müxtəlif, məşhur texniki üsullara yiyələnmişdilər.

XV əsrin sonlarında silah növlərini aşındırmalı oymadan olan qaytan, zolaq və emblem bəzəməyə başladılar. Lakin tətbiq olunan bu məşhur üsul haqqında ətraflı məlumata malik deyilik.

Təsvirin qabarıq, fonun uyğun dərinliyə və ya əksinə olması aşındırmanın yüksək və dərinliyinə dəlalət edir. Birinci halda təsvir hamar relyefdən ibarətdir, ikincisində isə bürünc üzərində oyma texnikasına yaxındır. Savatlı aşındırma oyuğa və qızıl suyuna salınmış rəngdə olur. Aşındırma qarasavat qara mina və nadir mineral yağ ilə yeridilir, sonra isə yağın buxarlanması və qaralamanın özülə bərkiməsi üçün məmulat közərdilir. Çox zaman qaralama ilə birləşən qızıl suyuna salınmış aşındırma qızıl suyuna salınmış oyma üslubunda olur.

Prinsip etibarı ilə, aşındırma üsulu dəmir və polad səth üzərinə tərkibi mum, bitum ağac qatran olan (lakin hər bir ustanın öz resepti var idi) pastanın isinmiş halda çəkilməsindən ibarət idi. Daha sonra ağac, sümük və ya polad çubuqla, yaxud iynə ilə rəsm kobud şəkildə zəif xətlərlə kalkadan köçürülür, rəsmin ətrafında qalın çərçivə düzəldilir, alınmış kiçik vannaya kimyəvi qarışıq tökürdülər. Kimyəvi qarışıq sirkə və azot turşusu və spirtdən ibarət idi. Bu qarışığın reseptini də hər bir usta sirr olaraq saxlayırdı. Əslində turşunun polada daha dərindən nüfuz etməməsi və ya rəsmin qeyri-dəqiq alınmaması üçün kimyəvi qarışığı vaxtında götürmək təcrübədən xəbər verirdi. Təkrar aşındırmaya çox nadir hallarda, yalnız təsvirdə müvafiq dəqiqlik əldə olunmadıqda müraciət olunurdu.

Digər üsul, ərinmiş qızılla bəzədilmə (alm. Goldschmelz), adının əksinə olaraq zərvərəqlə örtülmədən ibarətdir. Bəzədilən əşya xalis metaldan hazırlanır və rəngi dəyişənə qədər isidilir. Yalnız bu zaman üzərinə zərvərəq qoyulur və polad pardaxlama aləti ilə hamarlanır. Nəticədə zərvərəq özülə son dərəcə möhkəm yapışır.

Silahların bəzədilməsində ən qədim üsul savat və ya niyellodur (alm. Niello). Qarasavat dedikdə qızıl, gümüş və ya digər metal üzərində oyulmuş və kükürdə bənzər, ərinmiş qara metal kütlə, qədim "niqellumla" doldurulmuş rəsm başa düşülür. Qarasavat xalis gümüş, mis və qurğuşunun 1:2:3 nisbətindəki qarışığından ibarətdir.

Bu tünd boz ərinti açıq fonda olan rəsmdə çox cəzbedici və gözəl görünür. Niello texnikası, şübhəsiz ki, Şərqdən (hələ də tətbiq olunur, məs., İranda) Avropaya gəlmiş və rahiblərin vasitəsilə ilkin orta əsrlərdə Almaniyaya keçmişdir. Bu texnikaya əsasən düdəmənin, ümumilikdə isə əl silahlarının dəstəyində və qınında, nadir hallarda isə müdafiə əşyalarının üzərində rast gəlmək olar. Yalnız Şərqdə qarasavatla bəzədilmiş dəbilqə və zirehli geyim görmək olar. Orta əsrlərdə Avropada bu texnikadan yalnız italyanlılar istifadə etmişlər. XVI əsrdə onun tətbiqi yetərincə azalmışdı.

İndi isə orta əsrlərdə Azərbaycanda yayılmış və həm qədimliyinə, həm də böyük bədii effektinə görə diqqətəlayiq digər bir dekorativ texnikaya – qaxmaya və ya tauşirovkaya nəzər yetirək. Qaxma və ya inkrustasiya (almanca Tausia, yaxud Tauschierarbeit, ital. və lat. Tausia, tarsia, ing. empaistic work) qızıl və ya gümüşün dəmir və ya polad üzərinə yerləşdirilməsidir.

Azərbaycan ustalarının hazırladıqları silah sənəti nümunələrində bu və ya digər texniki üsullara rast gəlinir.

Orta əsrin əvvəllərində Azərbaycan döyüşçülərinin əsas qoruyucusu axçalı dəmir geyimi dəri və parçadan olan, kirəmit kimi dəmir halqaların bir-birinin altına sıra ilə yerləşdirildiyi köynəkdir. Lakin artıq VII-VIII əsrlərdə qoruyucu vasitə – kiçik halqalardan hörülmüş zirehlər meydana gəlir. XI əsrdə bura halqalı şalvarlar da əlavə olunur (*şək. 56*).

Orta əsr zirehləri döyüşçünün boğazdan başlayaraq bütün bədənini örtürdü. Boyun və üz isə dəbilqədən ayrı olan zireh ilə qorunurdu. Açıq qalan hissə ağız və burun idi. Dəbilqələr, əsasən dəmirdən və ya tunc və dəmirdən pərçimlənmiş olurdu.

Bu qoruyucu geyimi çiyni və qarın hissəni müdafiə edən çiyinlik və döyüş kəməri tamamlayırdı (*şək. 57*).

XIII əsrdə böyük sinəbənd (kirasa) və arxa zirehi dəri, parça əsaslı düzbucaqlı lövhədən pərçimlənmiş dəmir geyimlər meydana gəlir. Elə həmin vaxtda çiyinlik, dizlik və sipərlər yaranır. Artıq XIV əsrin I yarısında halqalı qolçaqlar lövhəlilərlə əvəz olunur (*şək. 58*).

Döyüşçülər başlarına qoruyucu baş örtüyü, təpəsi o qədər də hündür olmayan və kənardan yuxarıya qatlanmış oval dəbilqələr geyinirdilər. Dəbilqə boyunun qorunması üçün çənənin altından arxaya doğru bağlanan halqalı örtüklə təchiz olunmuşdur. Sonralar dəbilqə görünüşcə bir qədər dəyişikliyə uğramışdır. Artıq XIV əsrin II yarısında dəbilqə konus formalıdır, onun yuxarı hissəsi ornament naxışlarla bəzədilmişdir, uzadılmış ucu kiçik qotazla tamamlanır. Dəbilqənin qatlanmış hissələri itmiş, tacdan döyüşçünün peysər və boynunu qoruyan zirehli tor bərkidilmişdir. Zireh döyüşçünün boynunda və çiyinlərində tarım çəkilərək yalnız üzü açıq saxlayan yaxalıqla da qoruya bilərdi. Sonralar ona hərəkət edən dəmir burunluq da əlavə edilmişdir (89. 73-74).

Orta əsrlərdə qoruyucu geyim dəstinə qolçaqlar – döyüşçünün əllərini örtən metal lövhələr əlavə olundu. Qolçaq dirsəkdən başlayaraq oynağı boyu barmaqlara doğru olan hissəni tuturdu. Onların yaraq-yasaqlarına ox və kamandan, qılınc və qalxandan başqa, qədim deşici və tullayıcı silah olan nizə, zubin, taxta dəstəli, iti metal ucluqlu sinan da əlavə olunmuşdu. Bu ucluq yarpaq şəkilli dörd bucaqlı formada idi (36. 579).

XV-XVI əsr döyüş geyimlərdən biri də döyüşçünün baldırını qoruyan metal lövhə – ayaq sipəridir. Dəbilqənin də görünüşü dəyişmişdi. O, burunu qorumaq üçün zəncirlərdən hörülmüş hərəkətli şaquli lövhədən və ya arxadan hərəkətsiz peysərcikdən, yan hissədən isə qatlanmış yanaqlıqdan ibarət idi; dəbilqələr qızıl və gümüş taxma ornamentlərlə bəzədilirdi (36. 234).

Azərbaycan ustalarının hazırladıqları döyüşçü geyimləri arasında dəbilqə daha çox bədii tərtibata məruz qalmışdır; bu isə dəbilqənin daha çox nəzərə çarpan qoruyucu təchizat olduğundan irəli gəlir. Orta əsr miniatürləri, divar rəsmləri və muzey nümunələri dəbilqənin yalnız qoruyucu örtük funksiyasını yerinə yetirmədiyini, eyni zamanda sahibinin hərbi rütbəsinin və sosial statusunun göstəricisi olduğunu deməyə imkan verir.

Azərbaycanda istehsal olunan dəbilqələr iki inkişaf dövrü keçirmişlər. Birinci dövr IX-XI əsrləri əhatə edir. Forma və konstruksiya cəhətdən bu dövrə aid bütün dəbilqələrin üç növü vardır: yarımkürəşəkilli, yarımyumurta şəkilli və konusşəkilli kaska (fars xask). İlk iki örtük tamamilə metaldan qayrılmış və piyadalara məxsusdur; üçüncüsü isə müxtəlif növ lövhəciklərdən pərçimlənmiş və atlılar arasında geniş yayılmışdır.

XI əsrdən etibarən köhnə dəbilqə formaları yeni, daha üstün tutulan konik kürə forması ilə əvəz olunur. XVIII əsrə qədər mövcud olmuş bu formaların yalnız dekorativ tərtibatı və materialı dəyişirdi.

Təntənəli dəbilqələr, hökmdar və yüksək əmirzadələrin dəbilqələri hər zaman xüsusi bədii məziyyəti ilə seçilmişdir. Belə dəbilqələrdən biri Türkiyənin "Askeri muzesi"ndə mühafizə olunan I Şah İsmayıla məxsus dəbilqədir. Rəvayətə görə, bu dəbilqə 1514-cü ildə I Sultan Səlim və I Şah İsmayıl arasında baş vermiş Çaldıran döyüşündə hərbi məğlubiyyətin sübutu kimi osmanlılar tərəfindən İstanbula aparılmışdır (*şək. 59*).

Kürə formasına görə polad dəbilqənin pərçimlənmiş təpəsi dəbilqəsinə doğru artan əyri lələyə bənzər (sultan) şişəyi var. Dəbilqənin xüsusi çənbərlə hərəkət edən burunluğu, hər iki tərəfdən isə fərqləndirici lələk qoymaq üçün borucuqları var. Azərbaycanın silah tarixinin məşhur tədqiqatçısı S.Cahangirova hesab edir ki, Azərbaycan dəbilqələrində ilk burunluqlar XVI əsrin əvvəllərində – Səfəvilər dövründə yaranmışdır (18. 78).

Dəbilqənin sferik səthi ov səhnəsini təsvir edən medalyonlardan ibarət oyma dekorla bəzədilib. Dəbilqənin aşağı hissəsində xeyir-dua tipli yazılar olan dekorativ frizlər var. Və nəhayət, dəbilqənin aşağı kənarında sultanın boynunu qoruyan zireh var.

Mükəmməl forma və nixbətlər, bölgü və oyma və qızıl eşmələrin zəngin dekorativ ahəngi dəbilqəni əsl sənət nümunəsinə çevirmişdir.

Təbriz ustalarının hazırladıqları bədii tərtibat zənginliyinə, mükəmməlliyinə görə şaha (İsmayılın vərislərinə aid olduğu bildirilir) məxsus olduğu hesab edilən, XVI əsrə aid daha bir dəbilqə Moskva Silah palatasında saxlanılır.

Oyma, qarasavat, taxma və qiymətli bəndləri özündə birləşdirən zəngin, mükəmməl texniki üsullar onu birincidən fərqləndirir. Şişəyin olmaması dəbilqənin döyüş zamanı istifadə olunduğunu göstərir. Dəbilqəyə (ilmələrdə) üz və boyunu qorumaq üçün yan zirehlər asılmışdır.

Dəbilqənin qaş üzərindəki hissəsində kənarlarda yerləşdirilən böyük miqdarda füsunkar kalliqrafik taxmalat və alnı örtən zolaq forması öz gözəlliyi ilə insanı valeh edir. Zirehdə yerləşən zolağın yazısı qoruyucu, dini xarakter daşıyır. Yazı gözəl "suls" xətti ilə yerinə yetirilmişdir.

Gül və medalyonlarla yerləşdirilən yaqut və əqiq qoymalar dəbilqəyə fərqli bir kübarlıq və gözəllik bəxş edir (*şək. 60*). Dəbilqə nəinki onu yaradan sənətkarın bədii ustalığını, həm də onu qiymətli oymalarla bəzəyən zərgərlərin sənətkarlığını nümayiş etdirir.

Əgər Təbriz ustaları kürəşəkilli formaya üstünlük verirdilərsə, Şirvan ustaları xalis metaldan olan kürə və konusşəkilli formalar üzərində daha çox çalışırdılar. Belə dəbilqələrin şiş ucluğu ayrıca pərçimlənirdi və dəbilqənin davamı olurdu. Hökmdarlara məxsus dəbilqənin ucluğunda bürüncdən və ya misdən tökülmüş "sultan" yerləşdirilirdi.

Şirvan ustalarının XV-XVI əsrə aid möhtəşəm dəbilqələri İstanbulun "Topqapı" mu-zeyində saxlanılır. Onlardan biri I Xəlilullah Şirvanşaha, digəri isə Şirvanşah Fərrux Yasara məxsus olmuşdur. Şirvan Səfəvi qoşunları tərəfindən zəbt edildikdən sonra hər iki dəbilqə Təbrizə, 1514-cü ildə Osmanlı sultanı Təbriz zəbt etdikdən sonra isə İstanbula aparılmışdır (*şək. 61, 62*).

Xəlilullaha məxsus dəbilqə poladdan hazırlanmış və oyma üslubu ilə həkk olunmuş islimi motivli ornamental dekorla bəzədilmiş gümüşlə örtülmüşdür. Üstəlik biri dəbilqənin yuxarı hissəsində (şişəyə yaxın), digəri dəbilqənin alnı tutan kənarında yerləşən iki zolaq kalliqrafik yazılar da vardır. Dəbilqənin ön hissəsi böyük ustalıqla hazırlanmışdır. Burunluqdan ayrılan iki tağşəkilli forma həm gözü, həm də üzün yuxarı hissəsini tamamilə örtür. Dəbilqəyə ilmələr vasitəsilə halqalı çiyinlik asılmışdır. Şişək "sultan"la tamamlanır. Dəbilqənin yuxarı hissəsindəki yazı "Qurani-Kərim"dən götürülmüş, aşağı hissədə isə titullar öz əksini tapmışdır.

Dekorun, materialın və yazıların xüsusiyyətlərinə əsasən dəbilqənin hökmdara məxsus olduğunu və Şirvan torevtləri tərəfindən yaradıldığını müəyyən etmək olar.

Fərrux Yasarın dəbilqəsi forma və dekor baxımından birinciyə bənzəyir, fərq yalnız dəbilqənin ortasında spiralşəkilli relyef kannelürdadır. Bu dekorativ element məscidin novlu günbəzini xatırladır.

Polad dəbilqənin üst səthi gümüşlə örtülmüşdür. Dəbilqənin bəzəyi təmiz gümüşdən olan ornamentdən, yazısı və fonu savatlanmış gümüşdəndir (niyello texnikası).

Öz konstruktiv parametrlərinə görə hər iki dəbilqənin Şirvan torevtika məktəbinə aid olması şübhə yaratmır.

XVII-XVIII əsr dəbilqələri forma və konstruktiv xüsusiyyətlərinə görə Səfəvi və Şirvanşahlar dövrünün dəbilqələrini xatırladır. Yalnız burada dekor artıq bahalı örtük üzərində deyil, poladın səthində həkk olunurdu.

Qoruyucu baş örtüyü metal qulaqcıqlı və ya çiyinə düşən zireh dəmir şiş təpəli forma almışdır. Zireh, adətən ilmə ilə alnın üzərində bərkidilirdi, çünki yalnız döyüş zamanı üzə endirilirdi (68.103). Zirehə aşağıya və ya kənarlara doğru metal disklər bərkidilirdi. Dəbilqələr tez-tez plumajlar və ya öz qoşunlarını düşmən qoşunlarından fərqləndirməyə imkan verən iti ucluqlara keçirilmiş kiçik bayraqlarla bəzədilirdi. Analoji bayraqlara Orta Asiya, İran və türk döyüşçülərində də rast gəlmək olar (89. 74).

Həmin dövrdə Azərbaycanda hazırlanan daha iki maraqlı sənət əsərini qeyd etmək zəruridir. Bunlar müharibə zamanı zadəganların istifadə etdikləri iki dəbilqədir. Onlardan biri Moskva Silah Palatasında, digəri – üzərindəki yazıdan 1528-ci ildə Şah Təhmasib üçün hazırlandığı məlum olanı isə İstanbulda saxlanılır.

Birinci dəbilqə haqqında məlumata ilk dəfə Şamaxıdan rus çarı Boris Qodunova göndərilən silahların siyahısında rast gəlinir. Sonra dəbilqə və yuxarıda qeyd olunan qalxan knyaz F.İ.Mstislavskiyə keçmişdir. Başı qılıncın, nizənin və s. silahın zərbəsindən qoruyan, libasdan çox güləbətin araxçını xatırladan dəbilqə olduqca gözəldir. Onun dəqiqliklə çəkilmiş və ustalıqla oyulan nəbati ornamentlə örtülü səthində hündür oyma yuvasında firuzə və yaqutdan olan böyük yarımkürəli, incə çəkilmiş lövhəciklər yerləşdirilmişdir. Dəbilqənin aşağı hissəsi "Quran" ayələri olan dekorativ zolaqla, yuxarı hissəsi isə ornamentli, parlaq maviyə çalan firuzə və alqırmızı yaqutla bəzədilmiş qızıl dairə ilə haşi-yələnmişdir.

Dəbilqənin bəzəkləri arasında üzərində “Uca və rəhmli Allahın adına” yazılmış qrafik incəsənət nümunəsi də vardır (96. 69).

İstanbulun Topqapı muzeyində saxlanılan digər dəbilqə dekor və forma baxımından birincidən fərqlənir. Onun təpəsi uzadılmış və hündürdür, böyür tərəfdən lələklərin keçirilməsi üçün uzun borular olan iki novçası var. Dəbilqənin ən gözəl yeri onun yuxarı hissəsindəki (təpəsində) bəzəyidir. Burada 6 uzunsov medalyon, onların üzərində isə yırtıcılarla otlayan heyvanların mübarizəsini əks etdirən səhnə vardır. Qədim Altay incəsənətindən üzü bu yana izlənən bu mövzu, göründüyü kimi, XVI-XVII əsrlərdə Azərbaycanın sənət əsərlərində də geniş vüsət almışdır.

XVIII əsrdə Azərbaycan dəbilqələrinin dekoru, əsasən aşındırma və oyma üsullarla yaradılan süjetli ornamental təsvirdən ibarətdir.

Bu dövrə xas dəbilqələri Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan (inv. № 47. 63/78) kolleksiyanın köməyi ilə təhlil etmək mümkündür (*şək. 63*).

Orta əsrlərdə caba dəmir geyimi ilə yanaşı, zirehli köynək və şalvardan ibarət covşan da geniş yayılmışdı. Qısa qollu, hər iki yandan 10-15 sm ətəyə doğru yarığı olan zireh köynək bədənə kip otururdu (89. 75).

Azərbaycan ustalarının hazırladıqları qoruyucu yaraq-əsləhə sırasında halqalı zirehlərin özünəməxsus yeri vardır.

Halqalı zireh ən uzunömürlü qoruyucu geyim hesab olunur. Hələ e.ə. I əsrdə yaranan zireh XIX əsrin əvvəllərinə kimi öz mövqeyini saxlayırdı. Lakin odlu silahın meydana gəlməsi onun səmərəsizliyini üzə çıxartdı.

Milli Azərbaycan Tarixi Muzeyinin silah kolleksiyasındakı 11 zireh nümunəsi, demək olar ki, dəmir geyimin bütün növlərini əks etdirir.

Orta əsr, haqlı olaraq, halqalı zirehin “qızıl dövrü” hesab olunur. Bu dövr ərzində silahların görünüşü dəyişmiş, yeniləri yaranmış, zireh isə düşmənin kəsici və deşici silahına qarşı istifadə olunan ən etibarlı vasitə olaraq qalmışdı (29. 127).

İlkin orta əsrə aid dəmir geyim təsvirinə Şamaxıda aşkar edilmiş X əsrə aid qazıntı materillarından olan keramik boru üzərində rast gəlirik (60. 61). Təsvir, orta əsrlərdə lövhəşəkilli, yaxud “əsləhə” (özül) adlanan dəmir geyimin geniş yayıldığını göstərir. XII-XIII əsrlərdə yeni fars termini “zireh” və “dər” meydana gəlir.

Hətta dəmir geyimlərin növləri də yaranır: bədən (standart), nimbədən (qısaldılmış), xələt bədən (uzun).

Orta əsr miniatürləri sayəsində XV-XVI əsrə aid Azərbaycan zirehləri haqqında təsəvvür yaratmaq mümkündür.

Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan (inv. №№ 367, 369, 371, 1450, 1451, 1452) XVIII-XIX əsrə aid zireh nümunələri zirehləri iki tipdə təsnif etməyə imkan yaradır: “zirehli xələt” və “zirehli köynək”. Hər iki zireh qısa qolludur. Xələtə bənzər zireh xüsusi qarmaqlarla ön hissədən bağlanır, həmçinin döyüşçünün hərəkətini sıxışdırmamaq üçün hər iki yandan kəsiyi olur.

Piyadalar ox və kamanla təchiz olunsalar da, əsas silahları qılınc və qalxan idi. Soyuq silah olan nizə piyada döyüşçü üçün əlverişli olmasa da, o, təbərzin və nacaqdan məharətlə istifadə edirdi.

Orta əsr döyüşçüsünün başlıca qoruyucu silahı yumru tas şəkilli qalxan – məcənnə idi. O, ağacdan hazırlanır, dəri ilə üzlənir, içəridən əl üçün tutacaq, çöldən isə metal kənarlarla və əlvan rəngli qotazlarla təchiz olunurdu.

Sonrakı orta əsrlərdə qalxanlar taxtadan deyil, metaldan hazırlanmağa başladı (*şək. 64*).

Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan XVIII-XIX əsrə aid Azərbaycanın qalxan nümunələri bu silah növünün bədii işləməsi barədə tam təsəvvür oyadır. Özündə oyma, qızıl çərtmə, qarasavat, qəlib və tökməni birləşdirən dekorun texniki icrası, bir qayda olaraq, süjetli medalyon və dekorativ kətəbələrin daxil olduğu ornament kompozisiyasıdır.

Milli Azərbaycan Tarixi Muzeyində XVIII əsrə aid qalxan nümunəsi mühafizə olunur (MİF inv. № 549). Gümüş örtüklü, nazik təbəqəli poladdan döyülmüş 4.5 kq-lıq qalxanın diametri 60 sm-dır. Qalxanın qabarıq səthində dörd yarımkürə pərçimlənmiş və qalxanı saxlayan daxildə yerləşən qaxaqların dekotrativ örtüyüdür.

Qalxanın dekorativ kompozisiyası bu dövrə aid fars qalxan formasının təkrarıdır. Qalxanın qabarıq tərəfinin mərkəzində diametri 11 sm olan, üzərində ustalıqla kufi xətti ilə yazılar yerləşdirilmiş yumru

medalyon var. Yazı müdafiə xarakteri daşıyır. Medalyondan aralarında bardaşqurma oturmuş zadəganların təsviri olan trapesiyaşəkilli 16 kətəbənin yerləşdirildiyi günəş şüalarına bənzər bitki budaqları çıxır. Dairənin çöl hissəsinə yaxın xeyir-dua xarakterli kufi yazısı olan 8 kətəbə friz formasındadır. Qalxanın əyilmiş kənarlarına doğru dekorativ çərçivə rolunu oynayan, bununla da kompozisiyanı tamamlayan dar ornamental frizlər (məxaric) var. Bütün təsvirlər və yazılar oyma ilə həkk olunmuş və gümüş suyuna salınmışdır. Qalxan tama-milə meniskşəkillidir. Təsvirlərin və yazıların yüksək peşəkarlıqla hazırlanması onun təntənəli xarakterindən xəbər verir.

XVIII əsrə aid analoji ölçüyə, konstruksiyaya və materiala malik daha bir qalxan birincidən yalnız dekorativ kompozisiyasına görə fərqlənir.

Kompozisiyanın mərkəzində kufi yazılı dairəvi medalyon da vardır. Hər iki qalxanın dekorunun üslub baxımından yaxınlığı onların eyni müəllifin əsəri oldugunu ehtimal edir.

Buna baxmayaraq, qalxanın mərkəzi sahəsində dairəvi şəkildə ov səhnəsini əks etdirən müxtəlif fiqurlu təsvirlər yer alır. Kompozisiyanın aparıcı motivi dovşan, ceyran, canavar, şir və s. kimi heyvanlara ox atan atlı ovçudur (*şək. 65*). Birincidə olduğu kimi, burada da qalxanın kənarlarına doğru yazılı 8 kətəbə friz formasındadır.

XVIII əsrin sonu – XIX əsrin əvvəllərinə aid daha bir qalxan əvvəlki iki qalxanın konstruktiv formasını təkrarlayır, eləcə də “Xətai” tipli xalça kompozisiyalarında rast gəldiyimiz nəbati motivləri yaradan dekorativ quruluşu ilə fərqlənir.

Qalxanın mərkəzi sahəsini16 tağdan ibarət büzülmüş fiqurlarla tamamlanmış səkkizguşəli ulduz tutur. Kompozisiyanın kənarı arasında 8 kətəbə ovsun yazıları olan mədaxil (daxili sərhəd) və məxaricdən (xarici sərhəd) ibarətdir (*şək. 66*).

Qalxanların dekorunun konstruktiv və bədii üsullarının təhlili orta əsrlər boyu Azərbaycanda buna bənzər yaraqların hazırlanma və bəzədilmə ənənəsinin dayanaqlığından xəbər verir. Bu qalxanların Orta Asiya, İran və türk analoqları ilə müqayisəsi, onun bədii kompozisiyanın dekorativ quruluşu baxımından özünəməxsus cəhətlərini daha da qabardır.

Bu qalxanların Qafqaz analoqları ilə müqayisəsi isə üzvü olaraq dairəvi, mərkəzi kompozisiyada cəmləşən ornament, süjet və kalliqrafik elementlər baxımından Azərbaycan qalxanlarının daha zəngin dekora malik olduğunu nümayiş etdirir.

Azərbaycan qalxanlarının texniki dekor üslubu onu Şərq və Qafqaz analoqlarından fərqləndirir.

Azərbaycanın silah ustaları – qundaqsazları tökmə poladdan dairəvi, bir balaca əyilmiş səthə malik, dekorativ tərtibatı zəngin və təmtəraqlı qalxan düzəltməkdə mahir idilər (95. 191).

Azərbaycan ustalarının hazırladıqları silah və zirehlər böyük uğurla istifadə və ixrac olunurdu. Bu onların ölkə-nin iqtisadiyyatındakı böyük roluna dəlalət edir. Yazılı mənbələr 1580-ci ildə ingilis səyyahının Bakıya gəldiyini, yerli döyüşçülərin polad və gümüşdən olan silah-sursat və zirehlə bəzədildiklərindən heyrətə gəldiyini bildirir. Rus mənbələrində tez-tez Şamaxıda hazırlanan silah adına rast gəlirik.

Mənbələrin birində rus çarı Boris Qodunova məxsus Şamaxıda hazırlanan ornamentli səkkiz dəbilqədən söhbət açılır. Rus arxiv sənədlərində 1594-cü ildə Azərbaycan tacirinin son dərəcə gözəl bəzədilmiş qalxanı Fyodr İvanoviçə təqdim etdiyi bildirilir. Şamaxıdan Rusiyaya külli miqdarda zəngin çərçivəli qılınclar, üzərinə qızıl çəkilmiş ləl, yaqut və firuzə ilə bəzədilmiş nizəli xəncərlər, cah-calallı yəhər və yəhər örtükləri aparılırdı (XVI əsrin II yarısı) (5. 246).

Azərbaycan silahının ölkənin hüdudlarından uzaqlarda uğur qazanması təsadüfi deyildi. Yerli ustaların hazırladıqları bu silahlar yalnız möhkəmliyi və texniki bütövlüyü ilə deyil, həm də sənət əsəri olmaları ilə seçilirdi.

Silah dekoru ornament motivləri və heyvan, quş, insan fiqurlarının təsvirindən ibarət idi. Bəzən ustalar öz dövrlərinin görkəmli miniatürçüləri ilə birgə işləyirdilər. Silahın bəzədilməsi üçün miniatürçülər onun ölçü və formasına uyğun müxtəlif kompozisiyalar yaradır, bir sıra rəssamlar isə ustalarla birgə metalın üzərinə naxışlar həkk edirdilər.

Bu cəhətdən Kremlin Silah palatası kolleksiyasındakı qalxan maraq doğurur. Çünki o, nəinki silah ustaları ilə rəssamların iş birliyindən xəbər verir, həm də XVI əsr Azərbaycan bədii metal nümunəsi kimi əhəmiyyətlidir (*şək. 67*).

Rəvayətə görə, bu qalxan rus çarı Mixail Fyodoroviç Romanovun müdafiə silahı olmuşdur. Sonralar qalxan məşhur rus sərkərdəsi F.İ.Mstislavskiyə, 1622-ci ilin aprelində onun vəfatından sonra isə rus çarlarının xəzinəsinə verilmiş, mühafizə edilmişdir (96. 69).

Diametri 50,8 sm, səthi qızılla inkrustasiya olunan qalxan bütöv qırmızı polad lövhədən hazırlanmışdır. Əsas bəzək mərkəzdən kənarlara doğru genişlənən 42 spirallı zolaqdan ibarət sistemdir. Onun 9-da 25 növdə 71 heyvan fiquru, üç müxtəlif kompozisiyada 18 insan fiquru və digər təsvirlər vardır. Bu rəsmlər arasında S.Şedrin adına Sankt-Peterburq Dövlət kitabxanasında saxlanılan Sultan Məhəmmədin “Ov səhnəsi”nin miniatürünə tam oxşar kompozisiyalarının mövcudluğu maraq doğurur. Bu isə XVI əsrdə Təbrizdə məşhur Məhəmməd Möminlə birlikdə bu qalxanın hazırlanmasında Sultan Məhəmmədin də iştirakından xəbər verir. Qalxanın dünya muzeylərində saxlanılan Şərq silahları arasında müqayisəyə gəlməyəcək gözəlliyə malik olmasını vurğulayan Moskva alimləri tamamilə haqlıdırlar (39. 233).

Əksər metal məmulatların Təbrizdə hazırlanmasına baxmayaraq, bu sənətin XVI əsrdə Azərbaycanın digər bölgələrində də inkişaf etdiyinə dair bir çox sübutlar vardır. Mənbələrdə bu sənətə valeh olan və silah ustasının yanında çalışan hollandiyalı Meynert Meynertsın adı çəkilir. Yazılı mənbələr Şamaxıda, Gəncədə və Naxçıvanda da metal məmulatları hazırlanan emalatxanalardan xəbər verir.

XVI-XVII əsr yaraq-əsləhələri də öz işləmələri ilə göz oxşayır. Yaraqların ayrı-ayrı hissələrinin səthləri ornamentli və müxtəlif naxışlı zolaqlarla hissələrə ayrılmışdır.

Bir qədər sadə yaraqlarda müxtəlif hissələrin fərqli pardaxlanması, qara rəngə boyaması və ya zağlanması nəticəsində müstəsna optik təəssürat yaradılırdı. Təntənəli yaraqların demək olar ki, bütün hissələri fiqurlu ornament relyefləri ilə bəzədilmişdir. Hərdən bəzi hissələr qara sahə üzrə naxışlanırdı. Laklayıcılar dərin oyulmuş zolağı qaraldaraq, çıxıntıları qızılı rəngə boyamaqla çox gözəl rəng effektinə nail olmuşlar. Onlar bəzən metalla rəngli minanın kombinasiyasından da yararlanmışlar (36. 444).

Bu dövrdə dəbilqələr yarımkürə formalı, döyüşçünün rütbəsini və hansı dəstəyə aid olduğunu göstərən üçbucaqlı rəngli bayrağın, bir dəst lələyin, kiçik qotazın qoyulduğu uzun ucluq – bayraq ağaclı olurdular. Dəbilqənin altından zərbəni zəiflədən dəbilqəaltı taxırdılar (*şək. 68*).

Hərbi geyimlərin təhlili Azərbaycan zirehlərinin Orta Asiya və hind yaraqlarına yaxınlığını, lakin öz forma və dekoruna görə fərqləndiyini müəyyən edir.

Şah Təhmasibin dövründə akreditə olunan Venesiya səfiri Vinçenso de Alessandri öz hesabatında Azərbaycan döyüşçülərinin silahlanmasından yazmışdır. O, 1571-ci ildə Səfəvilərin paytaxtı Qəzvinə gəlmiş, təxminən iki il bu ölkədə olmuşdur. Alessandri Səfəvilərin hazırladıqları silahların keyfiyyətini, “digər xalqların silahlarından daha yaxşı” olduğunu qeyd edir. Bundan başqa, o, döyüşçülərin qalxanı, düdəməsi, dayandoldurum tüfənglərin – ərkəbuzların olduğundan xəbər verir. “Ərkəbuzun gövdəsi 6 qarış (9 düyüm) olur və üç unsiyadan (unsiya – 28 q) az özülə malikdir. Onlar bu silahla elə çevikliklə hərəkət edirlər ki, kamanı aparmağa, qılıncı tutmağa ehtiyac qalmır və bu silahlar zərurət yaranana qədər yəhərə bərkidilmiş şəkildə qalır. Ərkəbuz kürəkdə gəzdirildiyindən digər bir silahın istifadəsinə mane olmur” (54. 280).

Azərbaycan ustalarının qədim silah sənəti ənənələri qonşu ölkələrin silah ənənələri ilə sıx əlaqə zəminində inkişaf etmişdir. Bu ənənələrin bir-birinə qarışmasına səbəb yalnız məmulatların ayrı-ayrı yerlərə daşınması deyil, həmçinin silah ustalarının miqrasiyası və yerli ənənələrdən istifadəsidir. Azərbaycan silah ustalarının bir çoxunun qonşu Tiflisdə fəaliyyət göstərməsi deyilənləri təsdiq edir. Tiflisdə hazırlanan qılıncların tiyəsindəki avtoqraf yazılar bu mövqeyi işıqlandırır. Yazılar ustanın adından, “kimsə hazırladı” formasında, yaxud sadəcə addan, bəzən isə tarixdən, “istifadə olunub” sözündən, kəlamdan ibarət olur. Məsələn, “Məhəmməd hazırladı, 1273” (1856/57) və yaxud “Əndər xanın emalatxanası” və “Tanrı bilən məsləhətdir”, “Allahın köməkliyi ilə zəfər yaxındadır” kəlamları, “Məhəmməd hazırladı, 1300” (1882/83), “Mur... hazırladı, 1280” (1863/54), “Əli hazırladı”, “Osman hazırladı”, “hazırladı, istifadə olundu”, “Əbdül Məcid”. Bəzən bir tiyədə müxtəlif ustaların adı həkk olunduğu bir

neçə möhür olur. Məsələn, “Əli hazırladı” və “Osman hazırladı”. Göründüyü kimi, bunların hamısı gürcü deyil, Azərbaycan adlarıdır.

1845-1850-ci illərin “Qafqaz təqvimi”ndə Tiflisdə rəsmi olaraq 3 azər-baycanlı ustanın adı çəkilir (Usta Məmməd 1850, İbrahim Məmməd oğlu 1829-1850, İbrahim Xan oğlu 1846). 1867-ci ildə sexdə rəhbər kimi seçilən dörd azərbaycanlı (Xəzər Əbdül oğlu, Fərəs Əbdül oğlu, Xəzər Anqrit oğlu, Cabbar Şaşal oğlu) sənədlərdə gürcücə imza atmışlar. Bu da onların köhnə Tiflis sakini olduqlarını göstərir.

***ODLU SİLAHLAR***

XVI əsrin 40-cı illərində Təbrizdə rəssam Sultan Məhəmmədin yaratdığı “Şah ovu” miniatürü Azərbaycanda odlu silahlarının olmasına ən yaxşı sübutdür (ikili miniatür əlyazmanın mətni ilə əlaqəli deyil. “Silsilat əz-zəhab” Ə.Cami, Ərdəbil, 1549, Sankt-Peterburq).

XVI əsrin əvvəllərində odlu silahlardan əsasən piyadalar istifadə edirdilər. Bu haqda bəhs edən “Tarix-i Şah İsmail-i Səfəvi” I Şah İsmayılın dövründə baş verən hadisələri xarakterizə edir və XV əsrin sonu – XVI əsrin əvvəllərindəki Azərbaycana dair bir çox məlumatlar verir.

Bu dövrün muşketləri öz ağırlığı ilə fərqlənirdi; atəş zamanı onu torpağa sancılmış yabanın üstündə yerləşdirmək lazım gəlirdi. Dayandoldurum tüfənkçiləri və muşketyorlar barıt qabı, güllə kisəsindən ibarət qarışıq əşyalar gəzdirirdilər. Metaldan, daha çox gümüşdən hazırlanan, dekor cəhətdən də zəngin olan barıt qabı qarmaq vasitəsilə asılırdı (*şək. 69*). Bütün bunlar sol tərəfdə qılıncın üzərindən asılırdı (34. 216).

I Şah İsmayılın dövründə odlu silahın olmaması haqda fikirlər mövcuddur. V. Minorskiy qızılbaşların top-tüfəngdən istifadəsini göstərən mənbələrə istinad edərək “odlu silahın İrana Şah Abbasdan çox-çox əvvəl məlum olduğunu” təsdiq edir və 1552-ci ildə Səfəvilərin Ərcişi bu yolla mühasirədə saxladığını hesab edir. Bununla yanaşı, anonim mənbələr və I Şah İsmayılın müasiri İbrahim Əmiri də 1500-cü ildə qızılbaşlar Bakını mühasirəyə alanda yalnız tüfəngdən deyil, topdan da istifadə etdikləri bildirir (22. 280).

Orta əsr Azərbaycan odlu silahı tapança və tüfəngdən iba-rətdir. Hazırlanma texnologiyası sadə olsa da, onlar yüksək konstruktiv məziyyətə və döyüş keyfiyyətinə malik idilər. Əsası XVII əsrdə qoyulan odlu silahın istehsalı artıq XVIII əsrin sonlarında yüksək səviyyəyə çatmış və Şərqdə kifayət qədər məşhurluq qazanmışdı. Yüngül və istifadəsi əlverişli olan ispan-mavritan tipli çaxmaqdaşlı sürgüsü olan Azərbaycan tapançası və tüfəngi, uzun lüləli və keyfiyyətli yivi sayəsində yüksək sıxlığa və atış uzaqlığına malik idi.

Azərbaycan odlu silahları zənginliyi və müxtəlif bəzək tipləri ilə də fərqlənirdilər: lülə qızıl çərtmə, çaxmaqdaşlı sürgü oyma və çərtmə ilə işlənirdi, düz və dar qundaq çinar, yaxud qoz ağacından hazırlanır, müxtəlif növ sümük, gümüş və ağacla inkrustasiya edilirdi. Azərbaycan odlu silahının lüləsi uzun müddət istifadədən sonra belə yararlığını itirməyən yüksək keyfiyyətli poladdan hazırlanırdı. XVIII əsrə aid çaxmaqdaşlı odlu silah nümunələri XX əsr ovçuları tərəfindən də istifadə olunmuşdur. Gülləni qundağa bərkidən patron darağı nadir hallarda oyma və qara naxışlı gümüşdən hazırlanırdı. Ustanın və silahın sahibinin adı olan və dekorativ kətəbə ilə bitən yazı ona bədii gözəllik əlavə edirdi.

Çoxlu sayda yazılı, illüstrativ və maddi mənbələr artıq sonrakı orta əsrlərdə (XVIII-XIX) odlu silahların Azərbaycan döyüşçüləri arasında geniş yayıldığından xəbər verir. Bu mənbələr yalnız silah növlərinin istifadəsindən deyil, onların hansı növə, bədii bəzəyə və texniki taktiki xüsusiyyətlərə malik olduqlarını da müəyyənləşdirməyə imkan verir.

Azərbaycanın fərdi odlu silahları tüfəng və tapançadır. Tüfənglərin fitilli və çaxmaqdaşlı kimi iki tipi vardır (61. 9-17).

XVIII əsrin sonlarına aid fitilli iki tüfəng nümunəsi Milli Azərbaycan Tarixi Muzeyinin “Yeni tarix” fondunda saxlanılır (MİF, inv. № 350, 939). Tüfəng lülədən, qundaqdan, fitil mexanizmindən və dayaqdan ibarətdir. Ümumi uzunluğu 166 sm olan tüfəngin lüləsi kənarları olmayan yaxşı işlənmiş nişangaha asanlıqla keçir. Bu tip fitil tüfəng Şərqdə “mültuk” adı ilə məşhurdur (26.172).

Tüfəngin qundaq və nişangahı daha çox bəzədilir və nəbati motivli müxtəlif növ şponlardan inkrustasiya edilirdi.

XVIII-XIX əsrin sonlarından bütün Şərqdə olduğu kimi Azərbaycanda da çaxmaqdaşlı tüfənglər geniş yayılmışdı. Kifayət qədər yüngül və qısaldılmış (lüləsi) tüfənglər “Aralıq dənizi tipli”, eləcə də “ispan-mavritan tipi” adlanan, tətik çəkilən zaman qığılcım saçan çaxmaqdaşlı sürgüyə malik idilər (61.123). Çaxmaqdaşlı sürgünün quruluşu çox sadədir: arxa hissədən bağlı metal borulu lülə çaxmaqdaşlı sürgü ilə təchiz olunmuş və nişangahla bitişən qundağa bərkidilmişdir.

Milli Azərbaycan Tarixi Muzeyindəki topludakı çaxmaqdaşlı tüfəngin dekorativ bəzəyi əsasən xəznə hissəsi ilə lüləni birləşdirən və “məcburi” qundaq hissəsində, bütün lüləboyu (bilərzik), eləcə də taxta lülə və nişangah boyu taxma çənbərlərdə olur. Taxma çənbərlər poladdan hazırlanır və frizəbənzər nəbati dekorlu qızıl çərtməyə malik idilər (*şək. 70*).

Bir qədər yüngül və incə tipli çaxmaqdaşlı tüfənglərin (MİF Milli Azərbaycan Tarixi Muzeyi, inv. № 129) dayağı olmur, xəznə hissəsi isə yüngül və daha bəzəklidir. Bu tip çaxmaqdaşlı tüfəng Azərbaycanda “dayan doldurum” adlanır.

Muzey toplusunda XVIII-XIX əsrlərə aid tapançaların təhlili bu dövrdə hazırlanan tapançaların iki tipindən və onların istifadəsindən xəbər verir. Bunlar divar naxışlarında, səyyahların rəsmlərində və muzey nümunələrində qeyd olunan fitilli və çaxmaqdaşlı tapançalardır (*şək. 71*).

Birinci tip tapançanın ən parlaq nümunəsi Milli Azərbaycan Tarixi Muzeyində (MİF inv. №835) mühafizə edilir. Tapança arpacığa doğru (ağzı gen formada) genişlənən lülədən, qundaqdan və tüfəngdə olduğu kimi nişangahdan ibarətdir. Tapançanın uzunluğu 42,5 sm-dir və o, qundaqdakı halqaya bərkidilmişdir. Buna bənzər tapança tipi İstanbulun “Askeri” muzeyində (inv. № 788) “çakmaklı karabin” adı ilə mühafizə edilir. Türk tədqiqatçısı T.Çoroqlu İstanbul nümunəsinin Azərbaycan ustaların əl işi olduğunu bildirir (20. 40-44).

Muzey nümunələri, müasirlərin rəsmləri və divar naxışları (Şəki sarayı, Mehmandarovun evinin divar naxışları) ikinci tip tapançanın birincidən daha geniş yayıldığını göstərir (26. 175).

Eyni hissələrdən ibarət ikinci tipə aid tapança yalnız istifadə forması ilə fərqlənir (ATM, MİF, inv.№ 2722). Burada lülə düzdür, ağzı gen deyil, yüngülcə əyilmiş qundaq fil sümüyündən olan “bulud”la tamamlanır. Analoji nümunə İstanbul muzeyində (inv. № 1452) “Kafkasiya çakmaklı tapançası” adı altında saxlanılır.

Azərbaycan nümunəsində qundaq və lüləni tutan çənbərlərin medalyonlu nəbati kompozisiyadan ibarət incə oymaları vardır (*şək. 72*).

Lülə və nişangah inkrustasiya, oyma və çərtmə ornamentli gümüş taxmalarla ayrılır.

Göstərilən nümunələr bəzi nəticələrə gətirib çıxarmağa imkan verir: Azərbaycan odlu silahları digər Qafqaz və Şərq silahlarında olduğu kimi zənginliyi və bədii-texniki üslubunun rəngarəngliyi ilə seçilir. Lülələr qızıl çərtmə, çaxmaqdaşlı sürgülər oyma və çərtmə ilə işlənir, qundaqlar çinar və qoz ağacından hazırlanır, sümük, gümüş və dekorativ ağac növləri ilə inkrustasiya olunurdular. XIX əsrin sonlarından buraya sədəfli qaxma da əlavə olundu.

Ümumiyyətlə, Azərbaycanda odlu silahların bəzədilmə ənənəsi incəliyi, tüfəng və tapançanın funksional hissələrinə ornamental formaları sintez etmək bacarığı ilə seçilir. Türk və İran odlu silahlarından fərqli olaraq, Azərbaycan silahlarında bəzək ənənəvi şəkildə bütöv və tamamlanmış kompozisiyanı yaratmağa imkan verən iri hamar səthlərdə həkk olunurdu.

# NƏTİCƏ

Orta əsr Şərq və o cümlədən, Azərbaycan silahlarının müqayisəli tədqiqatı bu regionlarda yayılmış bütün silah növlərinin ümumi hazırlanma ənənəsinin olduğunu göstərir. Buradan belə nəticəyə gəlmək olar ki, bütün orta əsrlər boyunca Azərbaycan silahı Şərq silah sənətinin ayrılmaz tərkib hissəsi olmuşdur.

Silah artıq uzun zamandır ki, tətbiqi-dekorativ incəsənətin, daha dəqiq desək, "bədii metal" adlanan sahənin vacib obyektlərindən biridir.

Bir çox Şərq xalqlarının silah sənəti ənənələri qaynayıb-qarışmışdır. Bəzən bu və ya digər silahın hansı xalqa və ya ölkəyə məxsus olduğunu söylə-mək çətindir. Buradan da silahın düzəldilməsi və işlənməsi qaydalarını daha dərin-dən izləməyə imkan verən bədii-texniki təhlilə ehtiyac yaranır.

Silah işinin geniş yayıldığı ərəb Şərqi, Türkiyə, Qafqaz, İran, Orta Asiya və s. kimi silah mərkəzlərinin silah ənənələrinin müqayisəsi dekorun konkret xüsusiyyətini üzə çıxarmağa, silahın bu və ya digər xalqa məxsus olduğunu əsaslandırmağa imkan verdi.

Adları çəkilən regionlarda silah sənətinin milli keyfiyyətlərinin əsasında dayanan texniki və bədii normaların müəyyənləşdirilməsi də əsas nəticələrdən sayılır.

Qarşıya qoyulan vəzifələr nöqteyi-nəzərindən lokal silah məktəblərinin kompleks şəklində bədii-texniki araşdırılmasına təşəbbüs bu yerlərdə mövcud olan bədii-texniki yaradıcılıq sahələrini meydana çıxarmaq məqsədi daşıyır.

Və nəhayət, tədqiqatın qarşısında duran ən vacib məqsəd muzey kataloqlarında, mənşəyi dəqiqləşdirilməyən, "Qafqaz silahları" və ya "Şərq silahları" kimi ifadə olunan silah sənəti nümunələrinin milli müəllifliyini üzə çıxarmaqdır.

Azərbaycan silah sənəti ənənələrinin Şərqin silah məktəbləri səviyyəsində müqayisəsi böyük silah istehsalı mərkəzlərinin bədii-tipoloji xüsusiy-yətlərini fərqləndirməyə imkan verdi. Müqayisəli metod təyin olunmuş silah məktəblərinin ənənə və səriştələrini izləməyə şərait yaratdı.

Azərbaycan və digər silah məktəblərinin və silah nümunələrinin müqa-yisəsi silahın bədii və texniki səviyyəsini daha obyektiv dəyərləndirməyə kömək etdi.

Soyuq və odlu silahın hazırlanma və bəzədilmə texnologiyasına dair yeni məlumatlar daxil edilmişdir.

Şərq və Azərbaycan tipoloji soyuq silahı zərb, deşici və kəsici xüsusiyyətinə görə fərqlənir. Soyuq silahlar həm hücum, həm də müdafiə xarakterli olmaqla iki yerə ayrılır.

XI əsrdə dəmir mədənləri ilə zəngin üç silah istehsalı mərkəzi məşhur idi: Suriya, Anadolu və Cənubi Qafqaz.

Bədii silah bəzəyinin çiçəklənmə dövrü XVI-XIX əsrlərə təsadüf edir. Bu sahədə Şərqin öz yolu vardır. Qərbi və Şərqi Avropanın soyuq silah konstruksiyasına, materialına və növlərinə Yaxın Şərq – Türkiyə, İran, eləcə də Asiyanın köçəri tayfaları və Hindistanın bir hissəsi öz təsirini göstərmişdir. Bu özünü sahibinin statusundan, zövqündən və zənginliyindən xəbər verən silah bəzək üslubunda daha çox büruzə verirdi.

Sonralar (orta əsrlərin sonlarında) ərəb ustaları (Dəməşq), eləcə də Türkiyə (Konya, Helatı), Azərbaycan (Şirvan, Lahıc), İran (İsfahan) və Orta Asiya (Buxara, Səmərqənd, Kokand) ustaları böyük məşhurluq qazanmışdır.

XVIII əsrdən soyuq silah zəifləyərək təntənəli xarakter daşımağa başladı.

Əşyavi dünyanın total estetizmi ilə xarakterizə edilən Şərqin bədii mədəniyyəti şəxsiyyətin xarici simasını ifadə edən belə bir vacib detaldan – silahdan yan keçə bilməzdi.

Şərq silahlarının əsas tiplərinin təhlili və silahın səthini örtən, ona estetik görünüş verən dekorun inkişafı onu bədii mədəniyyətin ayrılmaz hissəsinə çevirir. Silahın mükəmməlləşməsi dekorun təkmilləşməsi ilə müşayiət edilirdi.

Aydın olduğu kimi, orta əsr xəncərinin milli mənsubiyyətini təyin etmək üçün bəzək və ornament, onun yerinə yetirilmə texnikası əsas meyardır.

Dekoratorlar üçün metal zirehlərin səthi geniş imkanlar yaradır. İncə zövqə malik Şərq ustaları yüz illər boyunca yaraq-əsləhələri bəzəyərək, bədii tərtibatın müxtəlif texniki üsullarını yaratmışlar.

Şərq və Azərbaycan dəbilqələrinin bədii tərtibatı ornamental (nəbati) motivlərdən və müxtəlif formalara, medalyonlara yerləşdirilən süjet təsvirlərdən ibarət idi. Dekorun vacib atributu "Quran"dan, hədislərdən parçalar və ya xeyir-dua xarakterli yazılardan ibarət epiqrafika idi.

Bahalı hərbi zirehlər sahibinin sosial və hərbi statusunu göstərən döyüş və təntənəli zirehlərə ayrılırdı. Estetik zövqü oxşayan zirehlərin dekorativ bəzəkləri bu tarixi dövrün silah sənəti və metal emalı sahəsində hökmranlıq edən bədii üslubu nümayiş etdirir.

XVII əsrdə istehsalının əsası qoyulan və XVIII əsrdə yüksək səviyyəyə qalxan odlu silahlar Şərqdə də məşhur idi. Şərq və Qafqaz odlu silahları zən-ginliyi və dekorunun rəngarəngliyi ilə seçilir: lülələr qızıl çərtmə, çaxmaqdaşlı sürgülər oyma və çərtmə ilə işlənir, qundaqlar çinar və qoz ağacından hazırlanır, sümük, gümüş və dekorativ ağac növləri ilə inkrustasiya olunurdular.

Türk silahlarının bəzədilməsində Türkiyənin orta əsr tətbiqi incəsənətinə uyğun ornamentlər: nazik sarmaşan gövdələrin üsluba uyğun kompozisiyaları, qərənfil, zanbaq, beşləçəkli güllərin təsviri istifadə olunurdu.

XVI-XVII əsrlərin təntənəli silahları hələ də öz gözəlliyi ilə insanı heyran edir. Öz məhsullarının bəzədilməsi üçün İran ustaları qızıl, qiymətli daşlar, firuzə və mirvaridən istifadə edir, naxışların qızıl və gümüşlə vurulmasının ənənəvi üslublarını işlədirdilər. İran silahlarının sarmaşan arabeska və cavan hörülmüş zoğlardan tərtib edilmiş ornament, istər dəbilqənin, istərsə də tiyənin ensiz zolağı, yaxud yumru qalxanın forması ilə üzvü surətdə bağlıdır.

Yaradıcılığın əsas surət düzülüşü olan və zəngin naxış sənətini yaradan, mürəkkəb ornamental ritmə və çox vaxt yüksək koloristik ahəngdarlığa malik dekorativlik Şərqi Ərəbistanın silah sənətində xüsusilə parlaq və özünəməxsus cizgilər əldə edirdi.

Teymur dövründən başlayaraq XVI əsrin sonunadək Səmərqənd Orta Asiya silah istehsalının mərkəzi hesab edilirdi. XVI-XVII əsr Orta Şərq sənətində silahın istehsalı böyük əhəmiyyət kəsb edirdi. Buxara, Xivə, Səmərqənd, Kokand və digər şəhərlər öz məhsulları ilə məşhur idilər.

Orta Asiyada orta əsrlərdə Qafqaz silahı ilə müqayisədə rəngdən (mina, firuzə) daha çox istifadə edilir. İnkişaf təmayülləri ən rəngarəng və bahalılardan (Teymurilər dövrü) XIX əsrin daha asketik və təmkinli məmulatlarına qədər izlənilir.

Qafqaz silah sənəti ilə Şərq ölkələrinin (İran, Türkiyə, ərəb Şərqi) silahlarının müqayisəsi bəzi nəticələr çıxarmağa imkan verir. Qafqazın müxtəlif xalqlarının kustar ənənələrini özündə əks etdirən müxtəlif texnika və ornamentlərlə zəngin dekora malik Qafqaz silahı Şərq xalqlarının maddi və bədii-mədəni tarixində unikal hadisədir. Öz "siması" olan, sevimli dekorasiya motivləri və texniki üsullara malik Qafqaz silahları özünə şöhrət qazanmış və Şərq silahlarının ən yaxşı təzahürünə çevrilmişdir.

Azərbaycanda hərb sənəti və silah istehsalı ta qədimdən yüksək səviy-yədə olmuşdur. Orta əsrlərdə silah və yaraq istehsalının əsas mərkəzi sayılan Təbriz, Şamaxı, Bakı, Naxçıvan, Ərdəbil, Marağa, Xoy, Gəncə emalatxanalarında həm sifariş, həm də satış üçün istehsalat həyata keçirilir, eləcə də qonşu ölkələrə ixrac olunurdu.

Azərbaycan silahının ölkənin hüdudlarından kənarda uğur qazanması təsadüfi deyil. Yerli ustaların hazırladıqları bu silahlar yalnız möhkəmliyi və texniki bütövlüyü ilə seçilmirdi, onlar həm də sənət əsəridir.

Silahların dekorativ tərtibatında ornament motivlərindən və heyvan, quş, insan fiqurlarını təsvir edən süjetlərdən istifadə olunmuşdur. Bəzən ustalar öz dövrlərinin böyük miniatüraçı rəssamlarla birgə işləyirdilər. Silahın bəzədilməsi üçün miniatürçülər onun ölçü və formasına uyğun müxtəlif kompozisiyalar yaradır, bir sıra rəs-samlar isə ustalarla birgə metalın üzərinə naxışlar həkk edirdilər.

Azərbaycan odlu silahları digər Qafqaz və Şərq silahlarında olduğu kimi zənginliyi və bədii-texniki üslubunun müxtəlifliyi ilə seçilir. Lülələr qızıl çərtmə, çaxmaqdaşlı sürgülər oyma və çərtmə ilə işlənir, qundaqlar çinar və qoz ağacından hazırlanır, sümük, gümüş və dekorativ ağac növləri ilə inkrustasiya olunurdular. XIX əsrin sonlarından bura sədəflə inkrustasiya da əlavə olundu.

Ümumiyyətlə, Azərbaycanda odlu silahların bəzədilmə ənənəsi incəliyi, tüfəng və tapançanın funksional hissələrinə ornamental formaları sintez etmə bacarığı ilə seçilir. Türk və İran odlu silahlarından fərqli olaraq, Azərbaycan silahlarının bəzəyi bütöv və tamamlanmış kompozisiyanı yaratmağa imkan verən iri səthdə həkk olunurdu.

Tədqiqata yekun vuraraq, Şərq xalqlarının maddi mədəniyyətinin və dekorativ-tətbiqi sənətinin nadir səhifəsi olan, orta əsr bədii mədəniyyətinin ümumi səviyyəsini əks edən orta əsr Azərbaycan və Şərq silahının yüksək bədii səviyyəyə malik olduğunu tam əminlikdə söyləyə bilərik.

# ƏDƏBİYYAT


1. *Azərbaycan tarixi muzeyi. Azərbaycan tarixi muzeyinin nəşri. Bakı, 2002, 312 s.*
2. *Azərbaycan tarixi muzeyinin 50 illiyi. P.Ə. Əzizbəyovanın redaksiyası altında. Bakı: Elm, 1973, 169 s.*
3. *Cahangir Zeynaloğlu. Müxtəsər Azərbaycan tarixi. B.: Azərbaycan Dövlət kitab palatası. 1992, 142 s.*
4. *Əfəndiyev Rasim. Azərbaycan bədii sənətkarlığı dünya muzeylərində. Bakı: İşıq, 1980, 166 s.*
5. *Əhmədov S.Ə. XIII-XV əsrlərdə Azərbaycanda hərb işi tarixi. (t.e.n. dissertasiyanın avtoreferatı). Bakı, 2001.*
6. *Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri. Bakı: Elm, 1979, 276 s.*
7. *Əsədova S.D. XIX-XX əsrlərdə Azərbaycan zərgərlik incəsənəti. Bakı: Elm, 1978, 96 s.*
8. *İbrahimov Fərhad. Azərbaycanın Orta əsr şəhərlərində metalişləmə sənəti (IX-XIII əsrlər). Bakı: Elm, 1988, 174 s.*
9. *Kərimov K. Azərbaycan miniatürləri. Bakı: İşıq, 1980, 222 s.*
10. *Mahmudov Y. Səyyahlar Azərbaycana gəlir. Bakı: Gənclik, 1977, 138 s.*
11. *Məşədixanım Neymət. Silah üzərindəki kitabələr. Azərbaycan Tarix Muzeyi. 2002, 308 s.*
12. *Mirzə Camal Qarabaği. Qarabağnamələr. Bakı: Yazıçı, 1989, 189 s.*
13. *Neymət M. Silahlar üzərində kitabələr. Azərbaycan Tarix Muzeyi. Bakı, 2002, 293 s.*
14. *Nizamülmülk Siyasətnamə. Bakı: Elm, 1989, 209 s.*
15. *Rasim Əfəndi. Azərbaycan dekorativ-tətbiqi sənətləri (orta əsrlər). Bakı: İşıq, 1976, 190 s.*
16. *Rasim Əfəndi. Azərbaycan İncəsənəti. Bakı: Çaşıoğlu, 2001, 247 s.*
17. *Rasim Əfəndi, Toğrul Əfəndi. Azərbaycan bəzək sənəti. Bakı: Çaşıoğlu, 2002, 80 s.*
18. *Sara Cahangirova. Mir Möhsün Nəvvabın silah kolleksiyası. // Hərbi bilik, 1998, № 4, 88 s.*
19. *Ziya Bunyadov. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1989, 334 s.*
20. *Çokuhlu T. Askeri muzede XVI yuzilde bulunan Osmanlı tüfenkleri. II Türk Tarih dekdis. 1988, № 24.*
21. *Mehmet Önder Yurt dışı muzelerinde Türk eserleri. Kültür Bakanlığı Ankara, 1989, 162 s.*
21. *Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bak: Azərbaycan Dövlət nəşriyyatı, 1993, 300 s.*
21a. *Qabusnamə. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1989, 237 s.*
22. *Абас-Кули-Ага Бакиханов. Гюлистан-и Ирам. Баку: Элм, 1991, 304 с.*
23. *Абросимова А.А. Художественная резьба по дереву, кости и рогу. М.: Высшая школа, 1984, 157 с.*
24. *Алиев А.А. Оружие древних Албанов. Автореферат диссерт. Тбилиси, 1978.*
25. *Алескеров Ю.Н. Самарканд: изд-во ЦК КП Узбекистана, 1970, 277 с.*
26. *Амирбекова Нармина. Индивидуальное огнестрельное оружие конца XVIII – начала XIX века в Азербайджане. Azərbaycan Tarixi Muzeyi. Bakı, 2002, 172-176 s.*
27. *Аносов П.П. Тайны булата. М.: Восход, 1987, 249 с.*
28. *Асмолов К.В. История холодного оружия. Часть 2: Восток и Запад. М.: Крафт, 1994, 294 с.*
29. *Ахмедов С. Защитная одежда в Музее истории Азербайджана. Azərbaycan Tarix Muzeyi. 2001, 237 s.*
30. *Аствацатурян Э.Г. История оружейного и серебряного производства на Кавказе в XIX – нач. XX вв. Дагестан и Закавказье. М.: Наука, 1977, 349 с.*
31. *Асцватурян Э.Г. Оружие народов Кавказа. М.: Хоббикнига, 1995, 357 с.*
32. *Ашурбейли С. Государство Ширваншахов. Баку: Элм, 1983, 344 с.*
33. *Белоус В.В. Булатная сталь: мифы и реальность. // Электронный журнал Инженерное образование, № 2, 2003.*
34. *Бехайм В. Энциклопедия оружия. /пер с нем./ АО Санкт-Петербург оркестр, СПб., 1995 г., 378 с.*
35. *Бичурин Н.Я. Историческое обозрение ойратов или калмыков с XV столетия. Элиста, 1991, 233 с.*
36. *Большая иллюстрированная энциклопедия древностей. Пер. Б.Б.Михайлова. Прага: Артия, 1986, 496 с.*
37. *Большая Энциклопедия Кирилла и Мефодия. М.: Планета, 2000, 438 с.*
38. *Бобров Л.А. Защитное вооружение енисейских кыргызов IX-XVII веков //Военно-исторический журнал Parabellum, № 13, М., 2001, 127 с.*

*39. Бретаницкий Л.С., Веймарн Б.В. Искусство Азербайджана IV-XVIII веков. М., 1976, 271с.*
*40. Веймарн Б.В. Искусство Арабских стран и Ирана VII-XVII веков. М.: Искусство, 1974. 187 с.*
*41. Буниятов З.М. Азербайджан в VII-IX веках. Баку, 1965, 295 с.*
*42. Восточное оружие. Памятники материальной культуры Азербайджана, вып. 1, Баку, 1989, 23 с.*
*43. Винклер П. фон. Оружие. Руководство к истории, описанию и изображению ручного оружия с древнейших времен до начала XIX века.*
*44. Военная энциклопедия (под редакцией И.Д. Сытина). М.: Мысль, 1983, 159 с.*
*45. Военное дело в Азербайджане в XII – нач. XIII вв. Древний и средневековый Восток. М.: Наука, 1985, 459 с.*
*46. Воронихина Л.Н. Государственный Эрмитаж. Л.: Искусство, 1983, 455 с.*
*47. (34) Гасимов О.Р. Оружие в собрании Национального музея Республики Татарстан. Казань: Заман, 2003, 159 с.*
*48. Геюшев Рашид Бахатур оглы. Археология Азербайджана. Баку: Ишыг, 1986, 186 с.*
*49. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв. Баку, 1982, 279 с.*
*50. Горелик М.В. Вооружение народов Восточного Туркестана. Восточный Туркестан в древности и раннем средневековье. М.: Ракурс, 1995, 231 с.*
*51. Горелик М.В. Оружие древнего Востока (4 тыс. лет. – 4 в. до н.э.). М., 1993, 392 с.*
*52. Горелик М. Джентльменский набор из Стамбула. Мастер ружье, № 66, 2000 г.*
*53. Государственная оружейная палата. М.: Искусство, 1988, 296 с.*
*54. Готтенрот Ф. История внешней культуры. Одежда, домашняя утварь, полевые орудия народов древних и новых времен. Т. 1. Изд. товарищества М.О.Вольф, СПб.- М., 1885, 156 с.*
*55. Гянджеви Н. Избранное, Баку, 1989, 727 с.*
*56. Дербенту 500 лет. М.: Изд-во Советская Россия, 1989, 158 с.*
*57. Доманский Я.В. Древняя художественная бронза Кавказа. М.: Искусство, 1984, 238 с.*
*58. Джидди Г.А., Юнусов А.С. История доспеха в средневековом Азербайджане ДАН Аз. ССР. 1986, Т.Х, с.49.*
*59. (60) Джидди Г.А., Юнусов А.С. Из истории доспеха в средневековом Азербайджане (об одной археологической находке). Доклады Академии наук Азерб. ССР. 1986, Т.Х 21, 169 с.*
*60. Дьяконов И.М. Пути истории. М.: Восточная литература, 1994, 289 с.*
*61. Жук А.Б. Стрелковое оружие. М.: Планета. 1992, 359 с.*
*62. История Агван Моисея Каганкатваци. СПб., 1861.*
*63. Искусство Кубачи. М.: Художник РСФСР. 1976, 216 с.*
*64. Именное и художественное холодное оружие XVII-XIX веков. М.: Искусство, 1956, 86 с.*
*65. Каграманов Дж.В. Из сокровищницы рукописей Азербайджана. Баку: Элм, 1983, 87 с.*
*66. Каминский В. Н. Воинское снаряжение раннесредневековых племен Северо-Западного Кавказа. Культура и быт адыгов. Майкоп, 1986, вып. VI. с. 19-20.*
*67. Каптерева Т.П., Виноградова Н.А. Искусство средневекового Востока. М.: Детская литература, 1989, 239 с.*
*68. Качаберидзе О. Оружие Кавказа. // "Вечерний Тбилиси" газета, № 12, 16.9.99.*
*69. Комар А.В., Сухобоков О.В. Вооружение и военное дело Хазарского каганата Восточно-европейский археологический журнал, № 2, 2000, с.62. М.: Планета, 1992, 749 с.*
*70. Клавихо Р.Г. Дневник путешествия ко двору Тимура в Самарканд в 1403–1406 гг. Сб. Отделения русского языка и словесности. Т.28. СПб. 1881, №1.*
*71. Комиссаржевский Ф.Ф. История костюма. Минск: Современный литератор, 1999, 495 с.*
*72. Куликов В.А. История оружия и вооружения народов и государств. М.: Воениздат, 2001, 139 с.*
*73. Куликов В. А. История оружия и вооружения народов и государств с древнейших времен до наших дней. Уфа: Вост. ун-т, 2003, 763 с.*

74. *Леонова Т. А. Социальный мир и культура средневековья (VI-XIV вв.). Уфа: Вост. ун-т, 1997, 279 с.*
75. *Мамедов С. История войн и военного искусства Азербайджана. Баку, 1977.*
76. *Массон В.М. Первые цивилизации. Л.: Наука, 1989, 275 с.*
77. *Миллер Ю. Искусство Турции. М.: Искусство, 1965, 165 с.*
78. *(76) Миллер Ю.А. Художественное оформление холодного оружия Турции XVII-XVIII веков. Труды Государственного Эрмитажа. Л.: Искусство, 1958, 249 с.*
79. *Минорский В.Ф. История Ширвана и Дербенда X–XI веков. М., 1963, 163 с.*
80. *Миронова О.И., Тихомирова Е. В. Парадное оружие и конское убранство XVII–XVIII вв. Из собр. Гос. Оружейн. палаты. Путеводитель. М.: Изобразительное искусство, 1986, 239 с.*
81. *Носов К.С. Осадная техника античности и средневековья. М.: Полигон, 2002.*
82. *Очерки по древнейшей истории Азербайджана. Баку: изд-во Академии Наук Азербайджана, 1956, 169 с.*
83. *Палтусова И.Н. Государственный исторический музей. Коллекция оружия А.А. Катуар де Бионкура. СПб.: Атлант, 2003, 254 с.*
84. *Панас К.И. Художественный музей Метрополитен. М.: Искусство, 1982, 263с.*
85. *Пешхоев, Саид-Селим Сулумбекович. Оружие вайнахов (чеченцев и ингушей). М.: Макс-Пресс, 2002, 186 с.*
86. *Подшибякин А.С. Холодное оружие. М.: ЮрИнфор, 2003, 256 с.*
87. *Пугаченкова Г., Галеркина О. Миниатюры Средней Азии. М., 1979, 207 с.*
88. *Рашидаддин. Сборник летописей. Перевод А.К. Арекдса. М.-Л., 1946, Т. 3. 240 с.*
89. *Садыхова С.Ю. Средневековый костюм Азербайджана (по данным миниатюр). Баку: Элм, 2005, 170 с.*
90. *Салманова А. К. Дагестанское оружие в XIX – начале XX вв. Диссерт. канд. ист. наук: Махачкала, 2000, 206 с.*
91. *Фаулер У. История оружия. Смоленск: Русич, 2002, 128 с.*
92. *Хубайш Тифлиси. Описание ремесел. М.: Восточная литература. 1976, 195с.*
93. *Шрамко Б. А. Из истории скифского вооружения // Вооружение скифов и сарматов. Киев: Радуга, 1984, 278 с.*
94. *Эрмитаж. Путеводитель. Л: Аврора, 1977, 182 с.*
95. *Эфендиев Расим. Художественное ремесло Азербайджана в музеях мира. Баку: Ишыг, 1980, 166 с.*
96. *Эфендиев Р.С. Народное искусство Азербайджана. Баку, 1984, 205 с.*
97. *Юнусов А.С. История военного дела в Азербайджане IX – нач. XIII вв. Автореферат. кандитат исторических наук. Баку, 1986.*
98. *Rachel Ward. Islamic Metalwork. British Museum. London, 1993, 128 p.*
99. *Fakhredin Sadroleslami Maraghe and Ajabshir. Ohadi Publication Tehran, 2000, 95 p.*

# *İLLÜSTRASİYA SİYAHISI*


1. Sivri tiyəli türk xəncəri. XVII əsr.
2. Düz tiyəli türk xəncəri. XVI əsr – XVII əsrin əvvəlləri.
3. Türk yatağanı. XVII əsr.
4. Türk odlu silahı. XIX əsr.
5. Xəncərin dəstəyi. Türkiyə. XVI əsr, fil sümüyü.
6. Silahlar üzərində yazı. Türkiyə. XVI əsr.
7. Türk dəbilqəsi. XVI əsrin ikinci yarısı.
8. Türkiyə polad dəbilqəsi. XVI əsr.
9. Türk zirehli geyimi. XVII əsr.
10. Fars xəncəri. XVIII əsr.
11. Fars xəncəri “Bebut”. XVIII əsr.
12. “Kama” tipli İran xəncəri. XVI əsr.
13. İran xəncərləri. XVII-XVIII əsrlər. İran.
14. Dəstəyi minalı İran xəncəri. XVIII əsr.
15. İran şəmşiri tiyəsi üzərində yazı. XVIII əsr.
16. Fars şəmşiri. XVII əsrin II yarısı. Silah palatası.
17. İkitərəfli təbərzin. XVI əsr – XVII əsrin əvvəli. İran.
18. Təbərzin. XVII-XVIII əsrlər. İran.
19. “Şimşək” İran tipli dəbilqə. XVIII əsr.
20. Qızıl qaxmalı fars qalxanı. XVIII əsr. İran.
21. Qolçaq və dəbilqə. XVIII əsr. İran.
22. Hökmdarlıq əsası. XVII əsr. İran.
23. Ərəb (Yəmən) cambiyası. XVII əsr.
24. Ərəb şəmşiri. XIX əsr.
25. Ərəb səifi. XVIII əsr.
26. Ərəb skimitarı. XIV əsr.
27. Orta Asiya dəbilqələri (XV-XVII əsr miniatürləri).
28. Ərəb dəbilqəsi. XV əsr.
29. Dəbilqə. Suriya. 1293-1341-ci illər. Metropoliten muzeyi.
30. İspan-mavritan tipli XIV əsr ərəb dəbilqəsi. Metropoliten muzeyi.
31. Ərəb nacağı. XVI əsr.
32. Buxara. Xəncərin dəstəyi. XIX əsr.
33. Kokand bıçaqları. XVIII əsr.
34. Əfqan xəncəri “bebut” XIX əsr.
35. XIX əsr Əfqan xəncəri “Peşkəbz”.
36. Zirehli döyüşçülərin rəsmi. XVII əsr Orta Asiya miniatürü.
37. Buxara. Şəmşir qılıncı. XIX əsr.
38. Ərəb şəmşiri. XIX əsr.
39. XIX əsrin sonu – XX əsrin əvvəlləri Bəzəkli Qafqaz xəncər qınları nümunələri.
40. Xəncər qını. Fraqment. Qafqaz. XIX əsrin sonu – XX əsrin əvvəlləri.
41. XIX əsr Tiflis xəncərləri.
42. Dağıstan xəncərləri. XIX əsr.
43. Qafqaz yatağanının sapı. XIX əsr.
44. Qafqaz qılıncı. XIX əsr.
45. Qafqaz tapançası. XVIII əsr.

46. Qafqaz tapançasının sürgüsü. XVIII əsr.
47. Toppuz. XVIII əsr. Azərbaycan.
48. Toppuz. XVII əsr. Azərbaycan.
49. Balta (nacaq) Təbərzin. XVIII əsr. Azərbaycan.
50. Nizə (Zubin) ucluğu. XVIII əsr. Azərbaycan.
51. Xəncər. XVI əsr. Təbriz.
52. Xəncərlər. XIX əsr. Zaqatala.
53. “Zülfüqar” qılıncı. XVIII əsr. Azərbaycan iki tiyəli.
54. Qılınc tiyəsinin möhürü. XIX əsr. Azərbaycan.
55. Qılınc tiyəsinin möhürü. XVIII əsr. Azərbaycan.
56. Azərbaycanın zirehli geyimləri. XVI-XVIII əsr.
57. Şirvanşah Fərrux Yassarın zirehli geyimi. Azərbaycan. XV əsr.
58. Qolçaq. Təbriz. XVI əsr. Silah palatası.
59. Dəbilqə. XVI əsr. Təbriz. “Topqapı” muzeyi.
60. XVI əsr dəbilqəsi. Təbriz. Silah palatası. Moskva.
61. Şirvanşah I Xəlilullahın dəbilqəsi. XV əsr. “Topqapı” muzeyi.
62. Şirvanşah Fərrux Yassarın dəbilqəsi. XV əsr. “Topqapı” muzeyi.
63. “Şimşək” tipli polad dəbilqə. XVIII əsr. Azərbaycan.
64. Polad qalxan. XVIII əsr. Milli Azərbaycan Tarixi Muzeyi.
65. Polad qalxan. XVIII əsr. Milli Azərbaycan Tarixi Muzeyi.
66. Polad qalxan. XVIII əsr. Milli Azərbaycan Tarixi Muzeyi.
67. Polad qalxan. XVI əsr. Təbriz. Məhəmməd Mömin Zərnişan. Moskva.
68. Zirehli dəbilqəaltı. XVIII əsr. Milli Azərbaycan Tarixi Muzeyi.
69. Barıtqabı. XIX əsr. Milli Azərbaycan Tarixi Muzeyi.
70. Türk silahlarının qundağı. XIX əsr. Milli Azərbaycan Tarixi Muzeyi.
71. Tapançalar. XVIII-XIX əsr. Milli Azərbaycan Tarixi Muzeyi.
72. Tapançalar. XIX əsr. Milli Azərbaycan Tarixi Muzeyi.

# İLLÜSTRASİYALAR







































5


16








1
2
3
4
5
6
7
8
9
10
11
12
13
14
















JULES . JACQUEMART


1
2
3
4
5
























a
b
c


































































9























